AEM

ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELMİ TƏQDİQAT

Beynəlxalq Elmi Jurnal

# Scientific Research

International Scientific Journal

## ELM VƏ TƏHSİLİN ƏSASLARI
## XVI BEYNƏLXALQ ELMİ KONFRANS

## FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
## XVI INTERNATIONAL SCIENTIFIC CONFERENCE

01.11.2025

# ELMİ TƏDQİQAT

**Beynəlxalq Elmi Jurnal**

---

**ELM VƏ TƏHSİLİN ƏSASLARI**

**XVI BEYNƏLXALQ ELMİ KONFRANS**

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

# SCIENTIFIC RESEARCH

**International Scientific Journal**

---

**FUNDAMENTALS OF SCIENCE AND EDUCATION**

**XVI INTERNATIONAL SCIENTIFIC CONFERENCE**

**(01.11.2025)**

**2025**

# Beynəlxalq indekslər / International Indices

**ISSN: 3104-4670**
**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© aem.az
© info@aem.az

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan

## Sədr müavinləri

**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan

**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan

## Məsul katib

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Vaqif ABBASOV**, ARETN Akademik Y. H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA A. A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR**, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Mehriban İMANOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səbinə TANRIVERDİYEVA,** Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Maharram MAMMADLI,** Baku State University / Azerbaijan

### Deputy chairmen

**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA,** Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan

### Executive secretary

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician Y. H. Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Karim SHUKUROV,** ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR,** University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Sayyara IBADULLAYEVA,** Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Rufat RUSTAMOV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Arzu SARDARLI,** First Nations University of Canada / Canada
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Haji HASANOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS/ Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia

**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Jeyran MAHMUDOVA,** Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nadir ILHAN,** Ahi Evran University / Turkey
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Garib MURSHUDOV,** Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Mehriban IMANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA,** Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Cavadxan Qasımov**
Naxçıvan Dövlət Universiteti
iqtisad üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-3826-033X
cavadxan.yusifoglu@ndu.edu.az

## Naxçıvan Muxtar Respublikasında məşğulluq tədbirlərinin yeni keyfiyyət mərhələsi

***Açar sözlər:*** *əhali məşğulluğu, sosial siyasət, tənzimləmələr, regional iqtisadi siyasət, davamlı islahatlar*
***Keywords:*** *population employment, social policy, regulations, regional economic policy, sustainable reforms*

Reallaşan iqtisadi islahatlar Naxçıvan Muxtar Respublikasında işsizlik və məşğulluq sahəsindəki tənzimləmələrin əsası kimi çıxış edir və bu proses regionun sosial-iqtisadi inkişafının əsas istiqamətlərindən birini təşkil edir. Son illərdə ölkə miqyasında həyata keçirilən iqtisadi islahatlar nəticəsində Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın bütün sahələrində modernləşmə, struktur dəyişiklikləri və dayanıqlı inkişaf tendensiyası müşahidə olunur. İslahatların əsas məqsədi iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq, sahibkarlıq mühitini yaxşılaşdırmaq, sosial rifahı gücləndirmək və ən əsası, məşğulluq imkanlarını genişləndirmək olmuşdur. Bu baxımdan, muxtar respublika iqtisadiyyatında baş verən yeniliklər, yaradılan istehsal və xidmət sahələri, kənd təsərrüfatı və sənaye sektorunda həyata keçirilən layihələr əhalinin məşğulluq səviyyəsinə birbaşa təsir

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

göstərmiş, işsizlik göstəricilərinin azalmasına şərait yaratmışdır.

Muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsi kimi əhalinin gəlir səviyyəsini yüksəltmək və dayanıqlı əmək bazarını formalaşdırmaq məqsədi daşıyır. Dövlət orqanları tərəfindən qəbul olunan strateji proqramlar, regional inkişaf planları, sahibkarlığın dəstəklənməsi tədbirləri və investisiya təşviq mexanizmləri yeni iş yerlərinin açılmasını stimullaşdırmışdır. Naxçıvanın iqtisadi sistemində aparılan bu dəyişikliklər nəticəsində işsizlik səviyyəsi tədricən azalmış, əhalinin iqtisadi aktivliyi artmış, gənclər və qadınlar arasında məşğulluq göstəriciləri yüksəlmişdir. Əmək bazarının tənzimlənməsi məqsədilə müasir mexanizmlərin tətbiqi, peşə hazırlığı və ixtisasartırma proqramlarının genişləndirilməsi, elektron məşğulluq xidmətlərinin istifadəyə verilməsi işaxtaranların daha səmərəli şəkildə işlə təmin olunmasına imkan yaratmışdır.

Son illərdə muxtar respublikada sənaye parklarının və məhəllələrinin yaradılması, kənd təsərrüfatının texnoloji yenilənməsi, istehsal sahələrinin modernləşdirilməsi və ixracyönümlü müəssisələrin təşviqi işsizlik probleminin həlli istiqamətində mühüm addımlar olmuşdur. Sənaye parkları və aqroparklar həm yerli resursların səmərəli istifadəsini təmin edir, həm də yeni iş yerləri yaradır. Bununla yanaşı, kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyi proqramları tətbiq olunur, vətəndaşlara özünüməşğulluq imkanları yaradılır, biznesin açılması üçün güzəştli kreditlər və təlim proqramları həyata keçirilir. Bu tədbirlər nəticəsində muxtar respublikada əmək bazarı tədricən özünü tənzimləyən və rəqabətədavamlı bir struktur qazanır.

Reallaşan iqtisadi islahatlar yalnız makroiqtisadi sabitliklə məhdudlaşmır, həm də sosial yönümlü iqtisadi inkişafın təmin

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

edilməsinə xidmət edir. Əmək bazarının inkişafı, işsizlik səviyyəsinin azaldılması və yeni məşğulluq formalarının tətbiqi sosial bərabərliyi möhkəmləndirən əsas amillərdəndir. Dövlət məşğulluq siyasətinin reallaşmasında əhalinin həssas qruplarına – gənclərə, qadınlara, əlilliyi olan şəxslərə xüsusi diqqət göstərilir. Müxtəlif təlim və peşə kursları, startap layihələri, kənd yerlərində kənd təsərrüfatı təşəbbüslərinin dəstəklənməsi əhalinin iqtisadi fəallığını artırır.

Eyni zamanda, rəqəmsallaşma proseslərinin genişlənməsi nəticəsində yeni peşələr formalaşır, xidmət sektorunun payı artır, qeyri-neft iqtisadiyyatının inkişafı daha çox iş imkanlarının yaranmasına səbəb olur. İqtisadi islahatların məşğulluq sahəsinə təsirinin daha səmərəli olması üçün muxtar respublikada insan kapitalının inkişafına böyük önəm verilir. Təhsil və peşə hazırlığı sisteminin əmək bazarının tələblərinə uyğunlaşdırılması, gənclərin texnoloji və innovativ bacarıqlarla təmin olunması uzunmüddətli məşğulluq siyasətinin əsas istiqamətini təşkil edir.

Peşə təhsili müəssisələrində praktiki bacarıqlara əsaslanan proqramların tətbiqi, universitet və sənaye əməkdaşlığı, ixtisaslı işçi qüvvəsinin hazırlanması iqtisadi inkişafın davamlılığını təmin edən amillərdir. Bu prosesdə həm dövlət, həm özəl sektor, həm də vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlıq mühüm rol oynayır.

Nəticə etibarilə, muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar işsizlik və məşğulluq sahəsində sistemli tənzimləmələrin əsasını formalaşdırmışdır. İslahatların məqsədyönlü və ardıcıl xarakter daşıması regionda iqtisadi sabitliyin qorunmasına, sosial rifahın yüksəldilməsinə və əhalinin həyat səviyyəsinin yaxşılaşmasına şərait yaratmışdır.

Hazırkı mərhələdə bu siyasətin davamlılığı üçün innovativ texnologiyaların tətbiqi, rəqəmsal iqtisadiyyatın inkişafı və regional əmək bazarının çevik idarəetməsi prioritet istiqamətlər

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

kimi çıxış edir. Beləliklə, reallaşan iqtisadi islahatlar muxtar respublikanın iqtisadi inkişafında və sosial sabitliyinin təminində mühüm rol oynayaraq, işsizlik probleminin aradan qaldırılması və məşğulluq səviyyəsinin yüksəldilməsi üçün strateji əsas yaradır.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**İradə Bağırova**
Naxçıvan Dövlət Universiteti
iqtisad üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0001-9326-3322
iradebagirova@yahoo.com

# Davamlı inkişaf kontekstində müəssisədə innovasiyalı idarəetmənin və kreativ fəaliyyətin qiymətləndirilməsi və bu sahədə əldə edilən uğurlar

***Açar sözlər:*** *davamlı inkişaf, innovasiyalı idarəetmə, müasir idarəetmə trendləri, inkşaf perspektivləri, kreativ fəaliyyət*

***Keywords:*** *sustainable development, innovative management, modern management trends, development prospects, creative activity*

Müasir dövrdə qlobal rəqabətin artması, texnologiyanın sürətli inkişafı və bazar tələblərinin dəyişməsi müəssisələri daha çevik, yaradıcı və səmərəli idarəetmə modellərinə yönəldir. Bu şəraitdə innovasiyalı idarəetmə anlayışı xüsusi əhəmiyyət kəsb edir. İnnovasiyalı idarəetmə müəssisələrin fəaliyyətində yeniliklərin tətbiqi, strateji düşüncə və dəyişikliklərə adaptasiya olunmaq qabiliyyəti kimi xüsusiyyətləri ön plana çıxarır. Davamlı inkişaf konsepsiyası müəssisələrin uzunmüddətli rəqabət qabiliyyətini təmin etməklə yanaşı, onların ətraf mühitə və cəmiyyətə olan təsirlərinin də nəzərə alınmasını tələb edir. Davamlı inkişaf – gələcək nəsillərin öz ehtiyaclarını ödəmək imkanlarını təhlükə altına atmadan, bu günün ehtiyaclarının ödənilməsi prosesi kimi qəbul edilir. Bu anlayış müəssisələr üçün aşağıdakı üç əsas istiqamətdə inkişafı nəzərdə tutur:

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

1. İqtisadi davamlılıq – maliyyə dayanıqlılığının və uzunmüddətli gəlirliliyin təmin olunması. 2. Ətraf mühitin qorunması – resurslardan səmərəli istifadə və ekoloji təsirlərin minimuma endirilməsi. 3. Sosial məsuliyyət – işçilərin rifahı, cəmiyyətə töhfə və etik idarəetmə.

İnnovasiyalı idarəetmənin əsas xüsusiyyətləri: 1. Yenilik yönümlülük – ənənəvi idarəetmədən fərqli olaraq, dəyişikliklərə açıq olmaq və daim təkmilləşməyi hədəfləyir. 2. Strateji çeviklik – dəyişən bazar və müştəri tələblərinə sürətlə reaksiya vermə bacarığı. 3. Texnologiyadan effektiv istifadə – rəqəmsal transformasiya və yeni texnologiyaların idarəetmədə tətbiqi. 4. İnsan resurslarının inkişafı – innovativ düşüncəni təşviq edən təşkilati mədəniyyətin formalaşdırılması.

İdarəetmə sahəsində müşahidə olunan əsas trendləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Rəqəmsallaşma və texnoloji transformasiya: -Rəqəmsallaşma və texnoloji transformasiya; - Süni intellekt (AI), avtomatlaşdırma və böyük verilər (Big Data); -Bulud texnologiyaları və SaaS (Software as a Service); - Rəqəmsal liderlik və innovasiya yönümlü idarəetmə.

2. ESG (Environmental, Social, Governance) idarəetməsi: - Təşkilatların ekoloji məsuliyyəti, sosial ədalət və korporativ idarəetmə prinsiplərinə əsaslanan fəaliyyət.

3. Agile və Lean idarəetmə modelləri: -Əlçatanlıq, çeviklik və səmərəlilik; -Layihələrin qısa dövrlərlə idarə olunması və operativ uyğunlaşma bacarığı.

4. Uzaqdan və hibrid iş modelləri: -Pandemiyadan sonra geniş yayılan bu model əmək bazarını dəyişdirmişdir; -Yeni liderlik bacarıqları tələb edir.

5. İnsan kapitalının inkişafı: - Əməkdaşların daimi inkişafı, təlim-tədris və motivasiya; - Korporativ mədəniyyətin gücləndirilməsi və əməkdaş məmnunluğu.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

6. Davamlı inkişaf və idarəetmə arasında əlaqə.

Azərbaycanda və beynəlxalq səviyyədə davamlı inkişaf və innovasiyalı idarəetmə sahəsində uğurlu nümunə olaraq müəssisələrin innovasiya strategiyaları və davamlılıq təşəbbüsləri misal göstərilə bilər. Davamlı inkişafda aşağıdakı problemlərlə qarşılaşıla bilər: - İnnovasiyalı idarəetmənin tətbiqində qarşılaşılan problemlər; - Davamlı inkişaf üçün innovasiyanın artırılması yolları; -Texnoloji inkişafların və qlobal dəyişikliklərin təsiri.

Davamlı inkişaf və innovasiyalı idarəetmənin inteqrasiyası: ekoloji innovasiyalar və "yaşıl" texnologiyalar, dövri iqtisadiyyat və resursların yenidən istifadəsi, sosial innovasiyalar və əməkdaşların inkişafı, davamlı tədarük zənciri və təchizatçıların idarə olunması ilə həyata keçirilir.

İnnovasiyalı idarəetmə və kreativlik yalnız texnologiya şirkətləri üçün deyil, istənilən sahədə fəaliyyət göstərən təşkilatlar üçün vacibdir. Bu iki amil birlikdə təşkilatlara çevik qərarlar qəbul etmək, rəqabətə davam gətirmək və bazarda lider olmaq imkanı yaradır.

İnnovasiyalı idarəetmə müasir müəssisələrin inkişafında əsas rol oynayır. Bu idarəetmə modeli yalnız texnologiyalara əsaslanmır, həm də strateji düşüncə, dəyişikliklərə açıq olmaq və əməkdaşlıq mədəniyyətini tələb edir.

**Bulqeyis Novruzova**
Naxçıvan Dövlət Universiteti
iqtisad üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0009-2105-2727
bulqeyis@yahoo.com

# Qlobal təhlükələr kontekstində Azərbaycanın qeyri-neft sektoru sahələrinin inkişafının müasir problemləri

***Açar sözlər:*** *qlobal təklükələr, qeyri-neft sektoru, qlobal təklükələrin ölkənin milli iqtisadiyyatına təsiri*
***Keywords:*** *global crises, non-oil sector, impact of global crises on the country's national economy*

Qlobal iqtisadiyyatda baş verən sürətli dəyişikliklər, xüsusilə pandemiya, geosiyasi münaqişələr və iqlim dəyişikliyi kimi təhlükələr bir çox ölkələrin iqtisadi sabitliyini sarsıtmışdır. Enerji resurslarına əsaslanan iqtisadi modellər bu tip risklərə qarşı həssas olduğu üçün Azərbaycan da öz iqtisadiyyatını şaxələndirməyə və qeyri-neft sektorunu inkişaf etdirməyə xüsusi diqqət yetirir. Azərbaycanın qeyri-neft sektorunun inkişafı təkcə iqtisadiyyatın şaxələndirilməsi üçün deyil, həm də ölkənin strateji təhlükəsizliyi, regional sabitlik, sosial rifah və qlobal risklərə davamlılıq baxımından həyati əhəmiyyət daşıyır.

Qlobal təhlükələrin fonunda Azərbaycanın qeyri-neft sahələrinin inkişaf vəziyyətinin təhlili, qarşıya çıxan problemlərin müəyyənləşdirilməsi və onların həlli yollarının araşdırılması aktualdır. Həmçinin, müasir dövrdə qlobal miqyasda yaranan təhlükələrin – pandemiyalar, münaqişələr, enerji və ərzaq böhranları, iqlim dəyişikliyi və texnoloji çağırışların – Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna təsirinin

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

öyrənilməsi diqqət mərkəzindədir. Bu sahədə mövcud problemləri müəyyənləşdirmək, onların səbəblərini təhlil etmək və qeyri-neft sektorunun davamlı inkişafı üçün elmi əsaslandırılmış təkliflər vermək vacib məsələlərdir.

Bu məqsədlə qeyri-neft sektorunun əsas sahələri – aqrar istehsal, sənaye, nəqliyyat-logistika, informasiya texnologiyaları, turizm və xidmətlər – üzrə təhlillərin aparılması, bu sahələrin inkişafını məhdudlaşdıran daxili və xarici amillərin müəyyənləşdirilməsi yolları araşdırılmalı və bu istiqamətdə dövlət siyasətinin, institusional mexanizmlər və xarici investisiyaların rolu da ayrıca qiymətləndirilməlidir.

Azərbaycanın qeyri-neft sektorunun inkişafı qlobal təhlükələr fonunda daha da strateji əhəmiyyət kəsb edir. İqtisadiyyatın dayanıqlığını və rəqabət qabiliyyətini təmin etmək üçün həm dövlət, həm özəl sektor, həm də cəmiyyət səviyyəsində aşağıdakı kompleks yanaşmalar tətbiq olunmalıdır: -qeyri-neft sektoruna investisiyaların təşviqi üçün institusional islahatlar sürətləndirilməli, dövlət-özəl tərəfdaşlığı mexanizmləri genişləndirilməli və praktiki tətbiqi artırılmalı, makroiqtisadi sabitliyin qorunması üçün fiskal şaxələndirmə və qeyri-neft gəlirlərinin artırılması əsas hədəf olmalıdır; -kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində suvarma sistemləri yenilənməli və “ağıllı su idarəçiliyi” texnologiyalarına keçid təmin olunmalı, kənd təsərrüfatında aqrar rəqəmsal platformalar qurulmalı, fermerlərə kənd təsərrüfatı sığortası, ucuz kredit və texniki dəstək mexanizmləri genişləndirilməlidir; - turizm sektorunun reabilitasiyası və inkişafı istiqamətində post-pandemiya dövründə daxili turizmin stimullaşdırılması üçün güzəştli paketlər və kampaniyalar tətbiq edilməli, regionlarda turizm infrastrukturunun inkişafına dövlət-özəl əməkdaşlığı ilə dəstək verilməlidir; - rəqəmsallaşma və İKT-nin inkişafı istiqamətində regionlarda sürətli internetin əlçatanlığı təmin olunmalı, tex-

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

noparklar və innovasiya mərkəzləri yaradılmalıdır; -sənaye və istehsalat sahəsində sənaye parklarında rezident olmaq üçün prosedurlar sadələşdirilməlidir; - xarici ticarət və ixracın dəstəklənməsi məqsədilə ixracatçılara logistika subsidiyaları, ekspertiza xərclərində güzəştlər və rəqəmsal satış kanallarında iştirak üçün dəstək mexanizmləri yaradılmalıdır; -insan kapitalı və təhsil sahəsində islahatlar aparılaraq peşə-ixtisas təhsili ölkə üzrə regional iqtisadi ixtisaslaşmaya uyğunlaşdırılmalıdır.

Qeyri-neft sektorunun real inkişaf potensialı mövcuddur, lakin bu potensialdan tam istifadə olunması üçün ciddi islahatlara və yeni yanaşmalara ehtiyac var. Kənd təsərrüfatı, turizm, İKT, sənaye, nəqliyyat və logistika sahələri Azərbaycanın qeyri-neft iqtisadiyyatında əsas istiqamətlər kimi formalaşsa da, bu sahələrdə hələ də struktur, institusional və texnoloji problemlər müşahidə olunur.

Qlobal təhlükələr (iqtisadi böhranlar, pandemiyalar, iqlim dəyişiklikləri, geosiyasi risklər və s.) fonunda qeyri-neft sektorunun zəifliyi ölkə iqtisadiyyatının dayanıqlığını təhdid edir. Müasir dövrün çağırışlarına cavab olaraq yaşıl iqtisadiyyat, rəqəmsallaşma, ixracın şaxələndirilməsi, regionların iqtisadi canlandırılması və insan kapitalının gücləndirilməsi kimi strateji istiqamətlər üzrə fəaliyyət genişləndirilməlidir.

Aparılan təhlillər göstərir ki, qeyri-neft sektorunun davamlı inkişafı üçün iqtisadiyyatın şaxələndirilməsi, ixrac potensialının artırılması, insan kapitalının inkişafı və texnoloji modernizasiya əsas prioritetlər kimi qəbul olunmalıdır. Yuxarıda irəli sürülən təkliflər həm milli iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsinə, həm də qlobal çağırışlara adaptasiya olunmasına şərait yarada bilər.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Sevda Cəfərova**
Naxçıvan Dövlət Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-5750-1291
ceferovas@gmail.com

# Azərbaycan musiqisində qəzəl romans janrının əsas xüsusiyyətləri

***Açar sözlər:*** *Azərbaycan professional musiqisi, qəzəl romans janrı, bədii-estetik məzmun, melodik-poetik struktur, xalq musiqisi*
***Keywords:*** *Azerbaijani professional music, ghazal romance genre, artistic-aesthetic content, melodic-poetic structure, folk music*

Azərbaycan professional musiqi sənətində qəzəl romans janrı özünəməxsus bədii-estetik məzmunu, melodik-poetik strukturu və emosional dərinliyi ilə seçilən mühüm janrlardan biridir. Bu janr milli musiqi düşüncəsinin poetik sözlə və professional musiqi forması ilə sintezindən yaranmış, həm xalq musiqisi ənənələrinin, həm də klassik poeziya estetikasının təsiri altında formalaşmışdır. Qəzəl romans janrı həm muğamın melodik-intonasiya xüsusiyyətlərini, həm də Avropa romans janrının lirizm və formalarını birləşdirərək Azərbaycan musiqisində milli romantik üslubun təcəssümünə çevrilmişdir.

Qəzəl romansların yaranma tarixi XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf edir. Bu dövrdə Azərbaycan musiqisi Şərq və Qərb mədəniyyətlərinin sintezinə əsaslanan yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdu. Klassik poeziyada qəzəl janrı çox qədim və zəngin ənənəyə malik idi; bu janrda Nizami, Füzuli, Xətai, Nəsimi kimi böyük şairlərin yaradıcılığı xüsusi

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

yer tuturdu. Qəzəllərin poetik dili, dərin fəlsəfi məzmunu və musiqili ritmik quruluşu onları melodik ifaya çox uyğunlaşdırırdı. Məhz bu cəhətdən bəstəkarlar qəzəllərin mətnini musiqiyə çevirməkdə təbii bir ifadə forması kimi qəbul etdilər. Beləliklə, qəzəl romans janrı həm ədəbiyyat, həm poeziya, həm də musiqi sahələrinin vəhdətindən doğmuş bədii hadisə kimi formalaşdı.

Azərbaycan qəzəl romans janrının əsas xüsusiyyəti onun musiqi-poetik sintezində təzahür edir. Bu janrda musiqi dili ilə poetik mətn arasında tam bir harmonik əlaqə qurulur. Bəstəkar musiqini yalnız şeirə müşayiət kimi deyil, onun mənəvi dərinliyini və emosional məzmununu açan bədii vasitə kimi istifadə edir. Qəzəlin poetik strukturu – beytlərin paralel quruluşu, rədif və qafiyə sistemi, ritmik axını – musiqi formasının da quruluşuna təsir göstərir. Buna görə də qəzəl romanslarda melodik cümlələrin təkrarı, variasiya üsulları və intonasiya paralelləri şeir forması ilə tam uyğunluq təşkil edir.

Melodik baxımdan qəzəl romanslar əsasən muğam intonasiyalarına əsaslanır. Muğam musiqisinin modal sistemi, məqam quruluşu və intonasiya prinsipləri bu janrın əsas bədii dayağını təşkil edir. Bəstəkarlar çox vaxt "Segah", "Şur", "Bayatı-Şiraz", "Rast", "Çahargah" kimi muğam ladlarından istifadə edir, lakin bu ladları romans janrının poetik və emosional xarakterinə uyğunlaşdırırlar. Nəticədə qəzəl romanslarda muğam musiqisinin improvizasiya ruhu ilə Avropa romansının lirik melodizmi və harmoniya sistemi vəhdət təşkil edir. Bu xüsusiyyət janrı həm milli, həm də universal səviyyədə qəbul edilən musiqi forması halına gətirir.

Azərbaycan bəstəkarlarının yaradıcılığında qəzəl romans janrına müraciət geniş yayılmışdır. Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin, Fikrət Əmirovun, Rauf Hacıyevin, Tofiq Quliyevin, Vasif Adıgözəlovun və digərlərinin yaradıcılığında qəzəl mətnlərinə yazılmış romans nümunələri janrın

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

inkişafına böyük töhfə vermişdir. Üzeyir Hacıbəylinin “Sevgili canan” romansı, Müslüm Maqomayevin “Sənsiz” və “Sevgilim” əsərləri, Fikrət Əmirovun “Gözəllər içində”, Vasif Adıgözəlovun “Sənsiz”, “Gəl” kimi əsərləri qəzəl romans janrının parlaq nümunələri hesab olunur. Bu əsərlərdə qəzəl poetikasının dərin lirizmi musiqinin emosional ifadəliliyi ilə qovuşur, nəticədə, yüksək bədii dəyərə malik musiqi-poetik sintez yaranır.

Qəzəl romansların mühüm xüsusiyyətlərindən biri də onların intonasiya-emosional quruluşudur. Bu janrda melodiyanın inkişafı çox vaxt nitq intonasiyasına əsaslanır. Bəstəkarlar şeirdəki vurğu, pauza və ritmik bölgüləri musiqidə də qoruyurlar. Melodiyalar əsasən qısa, lakin dərin emosional ifadəyə malik cümlələrdən ibarətdir. Bu xüsusiyyət həm qəzəl janrının poetik mahiyyətindən, həm də Azərbaycan dilinin fonetik melodiyasından qaynaqlanır. Hər bir musiqi frazası şeir misrasının emosional tonuna uyğun gəlir.

Qəzəl romans janrının forması da özünəməxsusdur. Adətən, bu janr bir hissəli liriko-dramatik kompozisiya şəklində olur. Girişdə musiqi obrazı təqdim edilir, orta hissədə kulminasiya – emosional yüksəliş baş verir, nəticədə isə sakit, meditativ bir sonluq yaranır. Bu forma həm poetik məzmunun, həm də musiqi dramaturgiyasının təbiiliyini təmin edir. Bəzi hallarda isə bəstəkarlar muğam formasına yaxınlaşdırılmış sərbəst strukturlardan da istifadə edirlər.

Nəticə etibarilə, qəzəl romans janrı Azərbaycan musiqisində milli və bəşəri dəyərlərin bədii vəhdətini yaradan unikal bir fenomendir. Bu janr milli musiqi üslubunun, klassik poeziyanın və professional bəstəkarlıq texnikasının sintezindən doğaraq, Azərbaycan musiqi mədəniyyətində yüksək bədii səviyyəyə çatmışdır. Qəzəl romans janrı həm milli ənənəyə sədaqət, həm də müasir musiqi düşüncəsinə açıq olan bir forma kimi bugünkü musiqi yaradıcılığında da öz aktuallığını qoruyur. Onun əsas

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

xüsusiyyətləri – melodik muğam intonasiyası, poeziya və musiqi harmoniyası, dərin lirizm və emosional təsir gücü – Azərbaycan musiqisinin estetik ruhunu, milli zövqünü və bədii düşüncə tərzini ən parlaq şəkildə ifadə edən janr modelini formalaşdırmışdır.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Sevinc Əsgərova**
Naxçıvan Dövlət Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-6676-2604
sceferova696@gmail.com

# Müasir dövrdə xor əsərlərində xalq musiqisinin melodik intonasiya quruluşundan istifadə

***Açar sözlər:*** *xor əsərləri, xalq musiqisi, melodik intonasiyalar, professional musiqinin janrları, ritmik xüsusiyyətlər*
***Keywords:*** *choral works, folk music, melodic intonations, genres of professional music, rhythmic features*

Azərbaycan musiqi mədəniyyətinin formalaşmasında xalq musiqisi ən mühüm mənbə və yaradıcı ilham qaynağı olmuşdur. Xalqın minilliklər boyu yaratdığı melodik intonasiyalar, ritmik xüsusiyyətlər və poetik məzmun Azərbaycan professional musiqisinin bütün janrlarında, o cümlədən xor yaradıcılığında geniş şəkildə əks olunmuşdur. Müasir dövrdə bəstəkarlar xalq musiqisinin intonasiya sisteminə müraciət etməklə, milli musiqi ənənələrini qoruyur, eyni zamanda, onları yeni ifadə vasitələri və kompozisiya texnikaları ilə zənginləşdirirlər. Bu, həm milli musiqi kimliyinin qorunması baxımından, həm də dünya musiqi arenasında Azərbaycan musiqisinin tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Xalq musiqisinin əsas xüsusiyyətlərindən biri onun melodik intonasiya quruluşudur. Bu quruluş milli musiqinin mənəvi kodunu, emosional dərinliyini və üslubi rəngarəngliyini müəyyən edir. Azərbaycan xalq musiqisindəki intonasiyalar muğam sisteminə, aşıq yaradıcılığına və xalq mahnılarına əsaslanır. Bu intonasiyalar əsasən qısa, lakin dərin emosional yüklü melodik

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

cümlələrdən ibarətdir və çox vaxt nitq intonasiyasına, xalqın danışıq melodiyasına yaxın olur. Xor bəstəkarları bu xüsusiyyəti nəzərə alaraq, melodik xətti insan səsinin təbii imkanlarına uyğun şəkildə qurur, musiqi dilində xalqın ruhunu ifadə etməyə çalışırlar.

Müasir dövrdə Azərbaycan xor musiqisinin inkişafında xalq melodiyasının intonasiya xüsusiyyətlərinə əsaslanan əsərlərin rolu böyükdür. Bəstəkarlar xalq musiqisindən birbaşa sitat gətirməklə yanaşı, onun intonasiyalarını yaradıcılıqla işləyir, yeni harmonik və polifonik sistemlərlə birləşdirirlər. Məsələn, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Vasif Adıgözəlov, Aqşin Əlizadə kimi bəstəkarların xor əsərlərində xalq musiqisinin ruhu müasir musiqi texnikası ilə vəhdətdə təqdim olunur. Bu cür əsərlər milli üslubun əsas göstəricisi olmaqla yanaşı, həm də müasir estetik tələblərə cavab verir.

Xalq musiqisinin intonasiya quruluşu xor musiqisinə bir neçə səviyyədə təsir göstərir: melodik, ritmik və intonasiya-emosional səviyyələrdə. Melodik səviyyədə xalq mahnılarının səs diapazonu, intervalları və frazal quruluşu əsas götürülür. Ritmik səviyyədə xalq rəqslərinin və iş mahnılarının təbii ritmik axını xor fakturasında təcəssüm olunur. İntonasiya-emosional səviyyədə isə xalq musiqisinə məxsus səmimilik, lirizm və obrazlılıq xor ifasında öz əksini tapır. Müasir xor bəstəkarları bu xüsusiyyətləri nəzərə alaraq, həm klassik xalq melodiyalarına, həm də regionlara xas intonasiyalara müraciət edirlər. Beləliklə, milli folklor motivləri müasir xor dilinin əsas bədii qaynaqlarından birinə çevrilir.

Azərbaycan xor musiqisində regional folklorun intonasiya xüsusiyyətlərindən istifadə də diqqətəlayiqdir. Məsələn, Qarabağ, Qazax, Şəki-Zaqatala, Naxçıvan və Şirvan bölgələrinin xalq mahnılarında melodik xəttin quruluşu bir-birindən fərqlidir və bu fərqlər xor bəstəkarları üçün zəngin yaradıcılıq mənbə-

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

yidir. Qarabağ mahnılarındakı lirik-emosional intonasiyalar, Naxçıvan folklorundakı arxaik melodik dövrlər, Şirvan musiqisinə xas olan ritmik ifadəlilik xor əsərlərində milli rəngarəngliyin ifadəsinə geniş imkanlar açır. Bu fərqliliklər bəstəkarın musiqi dilində həm milli kolorit yaradır, həm də xor fakturasının emosional təsir gücünü artırır.

Texniki baxımdan bəstəkarlar xalq melodiyasının intonasiyalarını müxtəlif musiqi üsulları ilə işləyirlər. Bəzi əsərlərdə xalq mahnısı olduğu kimi, əsas tema kimi təqdim edilir və xor fakturasında işlənir. Digər hallarda isə bəstəkar melodiyanın yalnız intonasiyasını saxlayır, onu yeni harmonik və polifonik mühitdə inkişaf etdirir. Məsələn, muğam intonasiyalarının xor musiqisinə uyğunlaşdırılması zamanı modulyasiya və tonallıq dəyişiklikləri, kvart və kvint intervallara əsaslanan melodik çevrilmələr geniş istifadə olunur. Bu üsullar həm milli musiqinin mahiyyətini qoruyur, həm də xor fakturasına yeni səslənmə və estetik dərinlik qazandırır.

Nəticə etibarilə, müasir Azərbaycan xor musiqisində xalq melodik intonasiyasından istifadə milli musiqi təfəkkürünün qorunması və inkişafı baxımından mühüm bədii hadisədir. Bu prosesdə xalq musiqisinin intonasiya sisteminin müasir kompozisiya prinsipləri ilə vəhdəti yeni üslubi istiqamətlərin yaranmasına səbəb olmuşdur. Xalq musiqisinin melodik quruluşu xor sənətində təkcə ənənəvi qaynaq deyil, həm də müasir musiqi təfəkkürünün ilham mənbəyinə çevrilmişdir. Müasir dövrdə bəstəkarlar xalq musiqisinin səsini xor vasitəsilə daha geniş auditoriyaya çatdırır, milli musiqi irsinin bəşəri dəyərlərlə vəhdətini təmin edirlər. Beləliklə, xalq melodiyasının intonasiya quruluşu həm Azərbaycan xor sənətinin inkişafında, həm də milli musiqi mədəniyyətinin davamlılığında aparıcı rol oynayır.

**Salbina Hatamli**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0001-1424-4204
salbinahatamli@gmail.com

# Authentic Assessment: Preparing University Students for Real-World Challenges

***Keywords:*** *authentic assessment, higher education, real-word skills, student learning outcomes, experiential learning*
***Açar sözlər:*** *autentik qiymətləndirmə, ali təhsil sistemi, praktiki bacarıqlar, öyrənmə nəticələri, təcrübəyə əsaslanan öyrənmə*

The shift from traditional testing to more meaningful and practice-oriented evaluation methods has become an essential goal of modern higher education. Authentic assessment focuses on students' ability to apply their knowledge and skills in real-world situations rather than simply recalling theoretical information. In the contemporary world, where adaptability, critical thinking, and creativity are among the most valued competencies, this approach has gained growing importance. It allows universities to bridge the gap between academic learning and the demands of professional life by placing students in situations that resemble the complexity of real work environments.

Higher education institutions today are expected to produce graduates who can respond effectively to unpredictable and rapidly changing challenges. Traditional examinations, which emphasize memorization and standardized testing, often fail to assess such abilities. Authentic assessment, by contrast, measures how students analyze, interpret, and use their

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

knowledge to solve practical problems. Through this approach, learners are encouraged to demonstrate understanding by doing rather than by merely describing. For example, a business student might prepare a marketing plan for a real company, an engineering student might design and test a prototype, or a teacher trainee might organize and deliver an actual lesson. These tasks help learners build confidence, collaboration skills, and independence.

Authentic assessment is grounded in the idea that learning happens most effectively through experience. When students are actively engaged in meaningful tasks, they are more motivated to learn and retain information for longer periods. The process encourages them to take ownership of their learning and reflect on their performance. This reflection is an essential part of metacognition – students develop awareness of their strengths, weaknesses, and strategies for improvement. In this way, assessment becomes not only a tool for measuring learning outcomes but also a process that shapes and deepens learning itself.

The introduction of authentic assessment in universities requires thoughtful planning and innovation. Educators must ensure that assessment tasks are aligned with learning outcomes and that they genuinely reflect real-world demands. Transparent criteria and clearly defined rubrics are essential to guarantee fairness and reliability. Feedback also plays a central role; it should be timely, constructive, and designed to help students improve their future performance. When learners receive meaningful feedback, they begin to see assessment as a continuous process of growth rather than a one-time judgment.

Technological developments have created new possibilities for implementing authentic assessment, especially in online and blended learning environments. Digital portfolios, interactive

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

simulations, and collaborative projects allow students to demonstrate creativity and critical thinking in flexible and diverse ways. Virtual learning platforms make it possible to integrate authentic tasks into courses regardless of location or time, thereby expanding access and inclusivity. However, these innovations also demand that educators acquire new skills and adopt creative approaches to design and evaluation.

The benefits of authentic assessment are wide-ranging. Students develop essential soft skills such as teamwork, communication, and problem-solving while also gaining practical experience relevant to their future careers. This approach encourages intrinsic motivation, as learners understand how their academic work connects with real-world contexts. Educators, on the other hand, obtain a richer and more accurate understanding of students' progress because authentic assessment reveals how knowledge is used, not just remembered. As a result, universities are better able to prepare graduates who are ready to contribute effectively to society and the workforce.

Despite its many advantages, authentic assessment also presents certain challenges. Designing realistic and meaningful tasks can be time-consuming and requires creativity and collaboration among educators. Large class sizes, limited resources, and subjective grading can make consistent application difficult. Instructors may also face an increased workload when providing detailed feedback. To address these challenges, universities should invest in teacher training, provide institutional support, and recognize innovative assessment practices as an essential part of academic quality. Collaboration among departments, the use of peer assessment, and the integration of digital tools can further enhance efficiency and reliability.

**https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025**

Authentic assessment represents a major step toward transforming the educational experience. It moves the focus from testing memory to developing competence, reflection, and adaptability. By engaging students in real-life tasks and promoting deeper understanding, this form of evaluation prepares them not only for successful careers but also for lifelong learning. As global challenges continue to evolve, higher education must equip graduates with the skills and mindsets necessary to navigate uncertainty and innovation. Authentic assessment, therefore, is not just a method of evaluation – it is a powerful educational philosophy that connects learning with living and knowledge with action.

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 29-32
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 29-32
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Rahibə Əbdülhəsənova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0003-8702-7766
abdulhasanovarahiba@gmail.com

# Miqrasiyanın regional iqtisadi inkişafda rolu və miqrasiya siyasətlərinin davamlı inkişafla əlaqəsi

***Açar sözlər:*** *miqrasiya, regional iqtisadi inkişaf, miqrasiya siyasətləri, davamlı inkişaf, iqtisadi artım, əmək bazarı, sosial inteqrasiya, humanitar dəyərlər*
***Keywords:*** *migration, regional economic development, migration policies, sustainable development, economic growth, labor market, social integration, humanitarian values*

Miqrasiya tarix boyu insan cəmiyyətlərinin inkişafında mühüm bir rol oynamış və bu gün də qlobal iqtisadiyyat və sosial strukturda əhəmiyyətli təsirlər yaradan bir prosesdir. İnsanların yerindən yerdəyişməsi, yalnız fərdi və ailə həyatı baxımından deyil, həm də ölkələrin və bölgələrin iqtisadi, sosial və mədəni inkişafında mühüm dəyişikliklərə səbəb olur. Miqrasiya həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə, xüsusilə regional iqtisadi inkişafın sürətlənməsində və yeni iş bazarlarının yaradılmasında vacib rol oynayır. Lakin miqrasiya siyasətlərinin effektivliyi və davamlı inkişafla əlaqəsi məsələsi, bu prosesin idarə olunmasında və miqrantların sosial və iqtisadi fəaliyyətə daxil edilməsində əsas məsələ olaraq qalır.

Miqrasiya, regional iqtisadi inkişafın təkanverici qüvvələrindən biri olaraq əhəmiyyətli təsirlərə malikdir. Bu, miqrantların iqtisadiyyatın müxtəlif sahələrində – xüsusilə əmək bazarında, sənaye və xidmətlər sahəsində – yeni dinamika yaratma-

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

larına gətirib çıxarır. Miqrantların ölkəyə daxil olması, işçi qüvvəsinin genişlənməsinə, məhsuldarlığın artmasına və iqtisadi böyümənin sürətlənməsinə səbəb olur. Əmək bazarına daxil olan yüksək ixtisaslı işçilər, yeni texnologiyaların yayılmasına və texniki biliklərin yerli əmək bazarına daxil olmasına kömək edir. Bu, regional iqtisadiyyatların təkmilləşməsinə və yeni bazarların yaranmasına təkan verir.

Bundan əlavə, miqrasiya, demoqrafik dəyişiklikləri və əmək qüvvəsi çatışmazlığını aradan qaldırmaq üçün vacibdir. İnkişaf etmiş ölkələrdə və ya bəzi regionlarda iş gücü çatışmazlığı olan sahələrdə, miqrantlar bu boşluqları dolduraraq iqtisadiyyatı dəstəkləyir. Məsələn, kənd təsərrüfatı və xidmət sektorlarında, daha çox miqrant işçilərin olması, iş gücü ehtiyaclarını qarşılayır və bu sahələrdəki məhsuldarlığı artırır.

Miqrasiya siyasətləri, bir ölkənin miqrantları necə qəbul etdiyi, əmək bazarına necə daxil etməsi və sosial xidmətlərdən necə faydalandıqları ilə bağlı müəyyən qaydalar və prosedurlar təyin edir. Bu siyasətlər, həm iqtisadi inkişafı stimullaşdırmaq, həm də miqrantların sosial cəhətdən inteqrasiya olunmasına xidmət edir. Miqrasiya siyasətlərinin effektivliyi, miqrantların əmək bazarına inteqrasiyasını təmin etmək və iqtisadiyyatın davamlı inkişafını gücləndirmək məqsədilə həyata keçirilir. İqtisadi inkişaf məqsədilə miqrasiya siyasətləri, adətən, müəyyən sektorlar üzrə işçi qüvvəsinə ehtiyac duyulduqda tətbiq edilir. Məsələn, Avropa İttifaqı və digər inkişaf etmiş ölkələr, kənd təsərrüfatı və xidmət sektoru kimi sahələrdə miqrant işçilərin qəbulunu təşviq edən siyasətlər yürüdür. Bu yanaşma, həmin ölkələrin iqtisadi artımını dəstəkləyir və müvafiq sahələrdəki işçi qüvvəsi ehtiyacını qarşılayır. Miqrasiya siyasətləri miqrantların sosial və mədəni inteqrasiyasını təşviq edən proqramlarla dəstəklənməlidir ki, bu da uzunmüddətli iqtisadi inkişaf və sosial uyğunluq üçün vacibdir.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

Miqrasiya siyasətlərinin optimallaşdırılması, yalnız miqrantların iqtisadiyyata daxil olmasına deyil, həm də regional inkişafın uzunmüddətli davamlılığının təmin olunmasına xidmət etməlidir. Bu siyasətlər həm iqtisadi artımı, həm də sosial və ekoloji davamlılığı nəzərə alaraq formalaşdırılmalıdır. Miqrasiya siyasətlərinin effektivliyini artırmaq üçün miqrantların təhsil səviyyəsi, ixtisasları və regional əmək bazarının ehtiyacları nəzərə alınmalıdır. Beləliklə, miqrasiya axınları, iqtisadi tələblərlə uyğun şəkildə yönəldilərək, daha səmərəli şəkildə həyata keçirilə bilər. Eyni zamanda, miqrantların əmək bazarına uğurlu şəkildə inteqrasiya olunması, onlara sosial və mədəni dəstək verilməsi, onlara təhsil və iş imkanları yaradılması məqsədilə müvafiq dövlət proqramları da həyata keçirilməlidir. Bu optimallaşdırma, regional iqtisadi inkişafın davamlılığını təmin edəcəkdir. Miqrasiya siyasətləri, yalnız iqtisadi məqsədlərlə deyil, həm də ekoloji və sosial davamlılıq prinsiplərinə uyğun olaraq hazırlanmalıdır. Yaşıl iqtisadiyyat və ekoloji balansın qorunması, miqrasiya siyasətlərinin təməlində dayanan əsas prinsiplərdən biri olmalıdır. Miqrasiya, bəzən ekologiya və təbii sərvətlərin istifadəsini daha da çətinləşdirə bilər. Buna görə də, miqrasiya siyasətləri bu cür problemləri nəzərə almalı və ekoloji təmiz texnologiyaların və davamlı infrastrukturun inkişafına yönəlməlidir. Miqrasiya siyasətləri, sosial bərabərliyi və cəmiyyətin bütün üzvləri üçün ədalətli imkanların yaradılmasını da təmin etməlidir. Miqrantların sosial vəziyyəti, onların iş və təhsil imkanları ilə birbaşa əlaqəlidir və bu da uzunmüddətli iqtisadi inkişafın əsasını təşkil edir.

Miqrasiya siyasətlərinin hazırlanmasında humanitar yanaşmalar və ictimai seçimlər mühüm əhəmiyyət kəsb edir. Miqrantların hüquqları, bərabər imkanlar və sosial ədalət prinsipləri, miqrasiya siyasətlərinin əsasını təşkil etməli, bu siyasətlərin yerli əhali ilə uyğunlaşmasını təmin etməlidir. Miqrantların

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 29-32
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 29-32
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

sosial inteqrasiyası, yalnız iqtisadi müsbət təsirlər üçün deyil, həm də cəmiyyətin sosial harmoniya və sabitliyini təmin etmək məqsədilə vacibdir. İctimai seçimlər, miqrasiya siyasətlərinin qəbuluna da təsir edir. Cəmiyyətin miqrantlara qarşı münasibəti, sosial mühitin necə formalaşacağını və miqrantların inteqrasiyasını asanlaşdıracaq tədbirlərin necə tətbiq olunacağını müəyyən edir. Beləliklə, miqrasiya siyasətləri humanitar dəyərlər və ictimai seçimlərlə sıx əlaqəli olmalıdır.

*Elm və Təhsilin Əsasları* **XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 33-36**
*Fundamentals of Science and Education* **XVI International Scientific Conference 1 november 2025 / 33-36**
**https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025**

**Гарифат Дадашова**
Азербайджанский Государственный Педагогический Университет
https://orcid.org/0009-0002-6099-3916
qerifet_73@mail.ru

# Этнопсихологическое наследие в творчестве Н.Гянджеви

***Ключевые слова:*** *Низами, наука, поэзия, образование, воспитание*
***Açar sözlər:*** *Nizami, elm, poeziya, təhsil, tərbiyə*
***Keywords:*** *Nizami, science, Poesy, education, upbringing*

Один из выдающихся представителей мировой литературы средневекового Востока, гениальный азербайджанский поэт-романтик и мыслитель Низами Гянджеви является одной из уникальных личностей, открывших новую страницу в летописи художественной мысли человечества.

Глубоко проникая в своих произведениях во внутренний мир человека, ученый и поэт отмечает психологические описания изменений психики личности, которые происходят под влиянием окружающей среды. Низами также затрагивает и другие психологические проблемы, показывая, что социальные нормы и стереотипы, традиции и обычаи играют важную роль в формировании межличностных и межгрупповых отношений людей. Он считал, что человек и общество – единая составная часть вселенной и постоянно изучал связь между ними. По мнению ученого и поэта, человек должен обладать богатой духовностью и иметь высокие идеалы. Будь он, то падишах

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

или простой смертный, он должен выделяться своими индивидуальными качествами: умом, знанием, смелостью, трудолюбием, правдивостью. Низами также выступал против тиранов, осуждал произвол и насилие феодалов, ратуя за гуманного, просвещенного правителя. Он считал что, человеческий род един и все расы равны.

В произведениях гениального поэта прослеживается идея утверждения необходимости трудового воспитания, требования обеспечения инвалидов и малоимущих государственной помощью, отказа от налогов и податей, возвышения способных и обуздания плутов. Прогрессивные социально-политические взгляды ученого и мыслителя оказали большое влияние на характер его высказываний по разным вопросам воспитания и образования. Он считал, что жизнью каждого человека и обществом в целом должен руководить разум. Высоко ценя разум, придавая ему огромное значение, Низами высоко ценил роль умственного образования. «Какое прекрасное имущество – осведомленность! Да не опустеет от нее мир», – читаем мы в «Искандер-наме» мыслителя. Низами выступает непримиримым противником невежества, беспечного отношения человека к своему умственному развитию. По его словам, у несведущего человека мысли пусты, слова бессодержательны, но «когда душа полна мыслями, то и содержание богато». В своих произведениях поэт и ученый значительное место отводит вопросам обучения, подчеркивая огромную веру в силу учения. Он утверждает, что нет такого человека, природа которого не изменилась бы к лучшему под воздействием обучения. Обучение и просвещение поднимают человека морально, а также они способны перевоспитывать людей. Отсюда вывод: обучение необходимо для всех без различия; каким

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

бы природным умом ни обладал человек, он должен учиться: «Всякий, кто не стыдится учения, извлекает жемчужины из воды, рубин из камня». В отличие от многих своих современников ученый считал, что образование необходимо как мужчинам, так и женщинам. Во всех своих поэмах он показывает женщин грамотными и образованными. В «Искандер-наме» Низами описывает высшую женскую школу, в «Лейли и Меджнун» говорится о школе совместного обучения девочек и мальчиков. Низами был сторонником широкого образования, включавшего не только гуманитарные, но и естественные науки. В поэме «Хосров и Ширин» есть специальные главы, посвященные образовательно-воспитательным вопросам: наставление сыну Мухаммеду, описание воспитания Хосрова, наставление тети Ширин своей племяннице, заключительные главы, в которых рассмотрены нравственные аспекты воспитания. Также в других поэмах есть главы педагогического характера в виде назидания учителей-наставников. Взгляды мыслителя на мораль и нравственность определялись его непримиримостью к насилию над человеком, глубоким гуманизмом и любовью к народу. Цель жизни, по Низами, служение своему народу. Он воспевает человеколюбие и гуманность. «Адский служитель – всякий, кто неблагожелателен», – говорит он устами своего героя и призывает к совершению добрых дел. Выступая против индивидуализма и эгоизма, мыслитель и поэт призывает к добродетели, к действиям, полезным для народа и всего общества. Но, призывая к добрым делам, Низами был далек от неразборчивой, всепрощающей любви, у него добродетель имеет определенную социальную направленность. Он предостерегает от того, чтобы проявлять милость и доброту к врагам человечества,

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 33-36
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 33-36
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

к злодеям, считая борьбу со злом добродетель. Низами придавал большое значение изучению наук, усвоению знаний. По мнению мыслителя, человек только этим путём может возвыситься на вершину совершенства. Низами выступал против темноты и мракобесия во всех своих произведениях. Поэт призывал всех к приобретению знаний и изучению наук. Не случайно, что во всех его произведениях можно встретить мысли об обучении. Поэт призывает людей к приобретению знаний и познанию тайн мира. Никто не должен проводить время бессмысленно и без дела. Все должны стараться постичь вершины науки и знания. Низами считает образованных и грамотных людей духовно бессмертными и ценит их высоко.

Ученый считал науку и обучение (образование) необходимым для всех. Благодаря обучению каждый человек может обладать большими знаниями. Сила действия обучения огромная. Наоборот, грамотный человек без обучения становиться неспособным, тупым, и несообразительным. По его убеждению, каждый человек должен заниматься обучением. Обучение обогащает ум и воспитывает человека. Обученный человек воспитывает в себе поведение, мораль, нравственность и этику. Эту идею мы видим и в других поэмах Низами. В своих поэмах он изображает своих героев как благонравными, воспитан-ными, грамотными, так и знатными людьми. Яркое наследие великого мастера, которое превратилось в неотъемлемую часть духовности азербайджанского народа, на протяжении многих веков занимает достойное место в сокровищнице неповторимых культурных ценностей. Низами Гянджеви за основу своих творений брал проблемы своей эпохи, но его произведения не потеряли актуальности и в наши дни.

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 37-39
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 37-39
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Ülvi Baxışlı**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0006-5325-8840
ulvibaxisli@ndu.edu.az

# Sahibkarlığın inkişafının məşğulluq, həyat səviyyəsi və iqtisadi təhlükəsizliyə təsiri

***Açar sözlər:*** *sahibkarlıq fəaliyyəti, həyat səviyyəsi, iqtisadi təhlükəsizlik, sosial-iqtisadi tərəqqi, iqtisadi artım*
***Keywords:*** *entrepreneurial activity, standard of living, economic security, socio-economic progress, economic growth*

Müasir dövrdə sahibkarlığın inkişafı hər bir ölkənin sosial-iqtisadi tərəqqisinin əsas amillərindən biri hesab olunur. Sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının təməl prinsiplərinə söykənərək iqtisadi artımın təmin olunmasında, məşğulluğun genişləndirilməsində, əhalinin gəlir səviyyəsinin yüksəldilməsində və iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində mühüm rol oynayır. Azərbaycan Respublikasında son illərdə aparılan iqtisadi islahatların əsas məqsədlərindən biri də sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması, biznes subyektlərinin fəaliyyətinin stimullaşdırılması və bu sahənin sosial-iqtisadi inkişafa dayaq rolunu gücləndirməkdən ibarətdir. Sahibkarlıq yalnız iqtisadi fəaliyyət forması deyil, həm də cəmiyyətin rifah səviyyəsini müəyyən edən, sosial sabitliyi dəstəkləyən və innovativ düşüncəni inkişaf etdirən strateji sahə kimi çıxış edir. Sahibkarlığın inkişafı məşğulluq səviyyəsinə birbaşa təsir göstərən əsas iqtisadi mexanizmlərdəndir. Kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin artması yeni iş yerlərinin yaradılmasına, əmək bazarının genişlənməsinə və işsizlik səviyyəsinin azalmasına səbəb olur. Sahibkarlar tərəfindən yara-

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

dılan müəssisələr, istehsal və xidmət sahələri həm iqtisadi dəyər formalaşdırır, həm də əhalinin əmək potensialından səmərəli istifadəyə imkan yaradır. Bu baxımdan, sahibkarlığın inkişafı dövlətin məşğulluq siyasətinin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilir. Xüsusilə regionlarda sahibkarlığın təşviqi, kənd təsərrüfatı, sənaye, turizm və xidmət sektorlarında kiçik biznesin inkişafı əhalinin iqtisadi aktivliyini artırır, miqrasiya proseslərini azaldır və yerli əmək bazarının tarazlığını təmin edir. Sahibkarlığın məşğulluqla yanaşı, əhalinin həyat səviyyəsinə təsiri də çoxşaxəlidir. Bir tərəfdən, sahibkarlığın inkişafı nəticəsində əhalinin gəlir mənbələri çoxalır, yaşayış standartları yüksəlir, sosial təminat imkanları genişlənir. Digər tərəfdən, sahibkarlıq fəaliyyəti cəmiyyətin istehlak strukturuna, xidmət keyfiyyətinə və ümumi sosial rifaha müsbət təsir göstərir. Gəlir səviyyəsinin artması təhsil, səhiyyə, mədəniyyət və digər sahə-lərdə fərdi investisiyaları stimullaşdırır, bu da uzunmüddətli sosial inkişaf üçün əlverişli mühit yaradır.

Sahibkarlığın inkişafı iqtisadi təhlükəsizliyin təmin olunması baxımından da mühüm əhəmiyyətə malikdir. İqtisadi təhlükəsizlik anlayışı ölkənin milli maraqlarının qorunmasını, iqtisadi müstəqilliyin və davamlı inkişafın təmin edilməsini ehtiva edir. Güclü sahibkarlıq sektoru iqtisadi sistemin dayanıqlığını təmin edir, bazar iqtisadiyyatında şoklara qarşı müqaviməti artırır və resurslardan səmərəli istifadəyə şərait yaradır. Sahibkarların iqtisadi fəallığı daxili istehsalın genişlənməsinə, idxaldan asılılığın azalmasına, ixrac potensialının güclənməsinə səbəb olur. Bu isə ölkənin valyuta sabitliyini və iqtisadi təhlükəsizliyini təmin edən əsas faktorlardan biridir. Azərbaycan iqtisadiyyatının son onilliklərdə keçdiyi transformasiya mərhələsi göstərir ki, sahibkarlığın inkişafı iqtisadi sabitliyin və dayanıqlı artımın mühüm təminatçısıdır. Dövlət tərəfindən sahibkarlığın dəstəklənməsi istiqamətində geniş tədbirlər həyata keçirilir:

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 37-39
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 37-39
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

vergi güzəştləri, biznes mühitinin sadələşdirilməsi, "bir pəncərə" sistemi, innovasiya təşviqi, güzəştli kreditlər və startap layihələrinə dəstək proqramları sahibkarlığın dinamik inkişafına şərait yaradır. Xüsusilə mikro və kiçik biznesin inkişafı sosial təbəqələrin iqtisadi fəallığını artırmaqla həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfə verir. Sahibkarlığın bölgələrdə genişləndirilməsi regionlararası iqtisadi fərqləri azaldır, resurslardan balanslı istifadəni təmin edir və sosial rifahın bərabər paylanmasına xidmət edir. Sahibkarlığın inkişafı həm də innovasiya və rəqabət mühitinin formalaşmasına gətirib çıxarır. Müasir dövrdə iqtisadi artımın əsas drayverlərindən biri innovasiyadır və məhz sahibkarlar bu yeniliklərin tətbiqində aparıcı rola malikdirlər. Yeni texnologiyaların tətbiqi istehsal səmərəliliyini artırır, xərcləri azaldır və məhsulun keyfiyyətini yüksəldir. Rəqabət qabiliyyətli sahibkarlıq mühiti iqtisadi sistemin çevikliyini, resurs bölgüsünün effektivliyini və uzunmüddətli dayanıqlığını təmin edir. Bu da iqtisadi təhlükəsizlik baxımından strateji əhəmiyyət daşıyır, çünki ölkənin iqtisadi müstəqilliyi daxili istehsal güclərindən asılıdır.

Nəticə etibarilə, sahibkarlığın inkişafı sosial-iqtisadi sistemin bütün səviyyələrində müsbət nəticələr doğuran çoxşaxəli prosesdir. O, məşğulluğun genişlənməsi, həyat səviyyəsinin yüksəlməsi və iqtisadi təhlükəsizliyin təmin olunması üçün strateji mexanizm rolunu oynayır. Dövlətin iqtisadi siyasətində sahibkarlığın davamlı inkişafının təmin olunması, biznesin hüquqi və institusional əsaslarının möhkəmləndirilməsi, innovasiyaların təşviqi və regionlarda bərabər iqtisadi imkanların yaradılması gələcək dövrdə də sosial rifahın və milli təhlükəsizliyin başlıca təminatçısı olacaqdır. Beləliklə, sahibkarlıq cəmiyyətin iqtisadi həyatının təməl sütunlarından biri kimi həm fərdi, həm sosial, həm də milli səviyyədə inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir.

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 40-42
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 40-42
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Orxan Bəşirli**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0006-1018-7851
bashirli.orkhan@gmail.com

# İnvestisiya məfhumunun müəyyənləşdirilməsində ənənəvi 'Salini' meyarlarının rolu

***Açar sözlər:*** *"Salini" meyarları, investisiya, ICSID, arbitraj, tribunal, beynəlxalq investisiya hüququ*
***Keywords:*** *"Salini" criteria, investment, ICSID, arbitration, tribunal, international investment law*

"İnvestisiya" anlayışı beynəlxalq investisiya hüququnda, xüsusilə də İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz ("ICSID") nəzdində investor-dövlət arbitrajı çərçivəsində mühüm yer tutan bir məsələdir. Digər arbitraj rejimlərindən fərqli olaraq, ICSID Konvensiyası "investisiya" termininin açıq tərifini vermir və bununla da konkret əməliyyatın investisiya kimi tövsif edilib-edilməməsi məsələsini arbitraj tribunallarına həvalə edir. Bu boşluq "Salini Costruttori S.p.A. və İtalstrade S.p.A. Mərakeş Krallığına qarşı" işində göstərilmiş "Salini" testinin ortaya çıxmasına səbəb olmuşdur (ICSID Case No. ARB/00/4, Decision on Jurisdiction, 2001). "Salini meyarları" adını almış bu meyar ICSID Konvensiyasının 25(1)-ci maddəsinə əsasən investisiyanın mövcudluğunu qiymətləndirmək üçün ənənəvi və geniş tətbiq olunan bir çərçivəyə çevrilmişdir (Schreuer, 2010). "Salini Mərakeşə qarşı" işində arbitraj tribunalı avtomobil yolu üçün tikinti müqaviləsinin ICSID Konvensiyasının 25-ci maddəsinə uyğun olaraq "investisiya" kimi təsnif edilib-edilmədiyini müəyyən etmək məsələsi

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

ilə üzləşdi. Burada tribunal dörd məcmu meyar müəyyən etmişdir: (1) pul və ya aktivlərin qoyulması, (2) müəyyən müddət, (3) risk elementi və (4) ev sahibi dövlətin iqtisadi inkişafına olan töhfə ("Salini Costruttori S.p.A. and Italstrade S.p.A. v. Morocco", 2001). Həm iqtisadi, həm də hüquqi əsaslandırmadan irəli gələn bu elementlər həqiqi investisiyaları adi kommersiya əməliyyatlarından ayırmaq məqsədi daşıyırdı. Dolzer və Şreyerin də qeyd etdiyi kimi, Salini yanaşması ICSID-in yurisdiksiya sərhədlərini qorumaq istəyini əks etdirir (Dolzer, & Schreur, 2012). Məcəlləşdirilməsə belə, bu şərh sonrakı arbitraj təcrübəsi üçün təsirli istinad nöqtəsi oldu. Birinci element maliyyə kapitalı da daxil olmaqla, investor tərəfindən pul və ya aktivlərin qoyulmasını tələb edir. İkincisi, ümumilikdə iki ildən üç ilə qədər uzanan müəyyən bir müddəti əhatə edir. Üçüncü element isə gəlirlərin qeyri-müəyyənliyini təmsil edən riskdir. Nəhayət, ev sahibi dövlətin inkişafına töhfə verilməsi hələ də müzakirə edilir, lakin Konvensiyanın məqsədini özündə əks etdirir.

"Salini" meyarı ön plana çıxsa da, onun ciddiliyi və təsiri getdikcə daha çox sual doğurur. Bəzi arbitraj tribunalları bu meyarları sərt qaydalar deyil, təlimatlar kimi vurğulamışdırlar. Bəzi işlərdə isə tribunallar diqqəti yaxşı niyyətə və investisiyanın vicdanlı xarakterinə yönəltmişdir. Bütün bunlara baxmayaraq, "Salini" meyarları ICSID çərçivəsində "investisiya" anlayışının müəyyən edilməsində əsas sütun olaraq qalır. Müasir müqavilələr getdikcə daha çox açıq təriflər təqdim etsə də, "Salini" meyarları beynəlxalq investisiya arbitrajında hüquq, iqtisadiyyat və inkişafı tarazlayan şərhedici meyar rolunu oynayır.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

## Ədəbiyyat

1. Dolzer, R., Schreur, C. (2012). *Principles of International Investment Law*. Oxford University Press;
2. *ICSID Case No. ARB/00/4, Decision on Jurisdiction*. (2001).
3. Schreuer, C. (2010). *The ICSID Convention: A Commentary*. Cambridge University Press.
4. *Salini Costruttori S.p.A. and Italstrade S.p.A. v. Morocco*. (2001). Decision on Jurisdiction.

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 43-46
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 43-46
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Yeganə İsgəndərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-8467-1543
yegane.isgandarova@adpu.edu.az

# Müasir Azərbaycan dilində toponimlər

***Açar sözlər:*** *toponimlər, təsnifat, müasir, siyasi, dil*
***Keywords:*** *toponyms, classification, modern, political, language*

Müasir dünyanı coğrafi adlar olmadan təsəvvür etmək çətindir. Hər bir coğrafi ad (toponim) özündə müxtəlif məlumat-lar daşıyır: tarixi, coğrafi, siyasi və s. Belə ki, coğrafi adlar – tarixi hadisələrin şahidi, sübutu, nə vaxt baş verməsi haqda məlumatlar verir. Toponimika nisbətən yeni dilçilik sahəsi olsa da, qədim qəbilə, tayfa və xalqların tarixi, etnogenezi, dil daşıyıcıları haqqında çox qiymətli materiallar verir. Köçəri tayfaların miqrasiya yolları, qohum və qohum olmayan etnosların əlaqə tipləri və münasibətləri barədə aydın olan məlumatlar bu elmin tədqiqi nəticəsində meydana çıxır. Bu planda hər bir toponim – onu yaradanların mədəniyyət abidəsi sayılmalıdır. Xüsusi olaraq toponimiyanı bir növ insan tarixinin kodu kimi təsəvvür etmək olar. Burada ənənələr, dil formaları və dilin özü qalır, dünyanı anlamaq səviyyəsi əslini tapır və xalqın həyatına ən mühüm hadisələr hopur. Dilimizdəki digər leksik vahidlərdən fərqli olaraq toponimlər ictimai-siyasi mahiyyətlidir. Hər hansı yazılı mənbənin, tarixi abidənin verə bilmədiyi məlumatı onomastik vahidlərin vasitəsilə müəyyən edə bilirik. Toponimlər dil qanunları və normalarına tabe olduğundan, müəyyən ərazidə yaşayan əhalinin dil xüsusiyyətlərinin aşkar edilməsində onların rolu əvəzedilməzdir. Azərbaycanın toponimləri ölkənin zəngin tarixini,

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

müxtəlif mədəni təsirlərini və coğrafi xüsusiyyətlərini özündə cəmləşdirən linqvistik stok rolunu oynayır. Fars və türk köklərindən tutmuş rus irslərinə qədər bu coğrafi adlar Azərbaycanı sivilizasiyaların kəsişmə nöqtəsi kimi dinamik kimliyini əks etdirərək keçmişi və bu günü haqqında ətraflı məlumatlar çatdırır. Azərbaycan öz toponimik irsini qorumaqla öz dil müxtəlifliyinə və mədəni irsinə hörmətlə yanaşır, bu tarixi adların gələcək nəsillər üçün məna və əhəmiyyət kəsb etməyə davam etməsini təmin edir. Azərbaycan toponimlərini əmələ gəldiyi üsullardan asılı olaraq aşağıdakı kimi qruplaşdırmaq olar: antropotoponimlər, etnotoponimlər, hidrotoponimlər, zootoponimlər, fitotoponimlər. Antropotoponimlər – şəxs adı, soyad, ləqəb, titul əsasında meydana çıxan yer adlarıdır. Buna misal olaraq, “Mehdiabad” toponimini göstərə bilərik. Həmin toponim şəxs adı olan “Mehdi ” və “abad ” termininin birləşməsindən əmələ gəlmişdir. Etnotoponimlər – tayfa, qəbilə adları əsasında yaranmış toponimlərdir. Azərbaycan toponimik sisteminin ən mürəkkəb və qaranlıq sahəsi etnotoponimlərdir. Xalqımızın qədim tarixi ilə bağlı olan bu toponimlərin mənşəyi barədə hələlik çox az söz deyilmişdir. İndiyədək Azərbaycan etnotoponimlərinin tam mənzərəsini əks etdirən nə xüsusi elmi əsər, monoqrafiya, nə də lüğət hazırlanmışdır. Muğan, Muğanlı, Şıxlı, Corat, Alpout, Quşçu, Boyat, Təklə və s. Hidrotoponimlər – hidroterminlər əsasında yaranır. Məsələn, Bolsulu (Beyləqan), Qaşqaçay (Qax), Qoşabulaq (Gədəbəy), Qusarçay (Qusar), İlisu (Qax), Çaylı (Qazax, Şamaxı, Xanlar, Şəmkir), Sulutəpə (Bakı, Cəlilabad) və s. Zootoponimlər – heyvan, quş, balıq, həşərat və s. canlıların əsasında düzələn toponimlərdir. Tarixən xalqımızın iqtisadi həyatının bir hissəsini heyvandarlıq təşkil etmişdir. Bununla əlaqədar olaraq, bir sıra yaşayış məskənləri, yer adları əmələ gəlmişdir. Məsələn, Qazbölük (Balakən), Atbulaq (Salyan), İnəkboğan (Gədəbəy), Qoçdərə (Tovuz), Soxulcan

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 43-46
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 43-46
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

(Yardımlı), Ördəkli (Zəngilan) və s. Fitotoponimlər – bitki adları əsasında düzələn coğrafi adlardır. Azərbaycan dilinə məxsus toponimlərin bir qrupunu fitotoponimlər təşkil edir. Məsələn, Almalıq (Kəlbəcər), Almalıtala (Tovuz), Çovdar (Daşkəsən, Kəlbəcər), Pambıqkənd (Salyan), Laləzər (Şamaxı), Meşəli (Xaçmaz) və s.

Azərbaycan dilçiliyində aparılan tədqiqatlara əsasən toponimlərin yaranma yollarını aşağıdakı kimi təsnif etmək olar: 1) Etnonimlərdən yaranmış Azərbaycan toponimləri (etnotoponimlər); Toponimlərin adını götürdüyü Azərbaycan ərazisində yaşayan etnoslara, Albaniyada yaşayan müxtəlif tayfaları – kaspi, sak, hunqar, kəngər tipli tayfaları misal göstərə bilərik. Alpout kəndi (Bərdə rayonu), Hunan düzü (Tovuz rayonu), Satır təpə (Masallı rayonu). 2) İnsanlar yaşadıqları yerə ad verərkn həmin ərazi üçün xarakterik olan təbiət hadisələrini də əsas götürmüşlər: Çovğunqaya (Lerik rayonu), İldırımlı yoxuş (Kəlbəcər rayonu), Yelli təpə (Ağsu rayonu). 3) Bir sıra coğrafi adların yaranmasında cəhət adları xüsusi rol oynamışdır: Quzeykənd, Güney Qışlaq, Aşağı Qışlaq, Qərbi Azərbaycan. 4) Ətraf aləmdəki hadisə və əşyalarla bənzərlik əsasında yaran-mışdır: Kotanqaya (Laçın rayonu), Çomçədərəsi (Ağsu rayonu), Yorğandərəsi (Xocavənd rayonu), Haçadağ (Naxçıvan M.R). 5) Batil inanclar, inamlar və rəvayət hesab olunan hadisələrə əsaslanan coğrafi yer adları: Cinli Zeynallı kəndi (Goranboy rayonu), Cinlik kəndi (Ağdam rayonu), Cinli təpə (Qazax rayonu). 6) Rənglər əsasında formalaşan toponimlərin sayı kifayət qədər çoxdur: Bozdağ (Lerik rayonu), Sarıqaya kəndi (Zərdab rayonu), Qaragüney kəndi (Kəlbəcər, İmişli, Sabirabad rayonları). 7) Bir sıra toponimlərin yaranmasında saylardan istifadə edilir. Belə coğrafi obyektlərə Yalqıztəpə (Ağdam rayonu), Dördçinar kəndi (Füzuli rayonu), Yeddibulaq dərəsi (Göyçay rayonu), Qırxıncı kilometr köçəbəsi (Lerik rayonu),

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 43-46
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 43-46
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

Qırxqız dağı (Əsgəran rayonu). 8) Bir qrup obyektin kəmiyyətcə çoxluğu həmin yerin öz adını bu obyektdən götürməsinə gətirib çıxarmışdır. Seyidlər çökəyi (Kürdəmir rayonu), Cəlair dağı (Cəlilabad rayonu). 9) Şəxs adlarından törəmiş toponimlər: Gülməmməd dərəsi (Masallı rayonu), Əmir kəndi (Gədəbəy rayonu), Cəmil düzənliyi (Astara rayonu). 10) Memorial (xatirə) xarakterli toponimlər: Azərbaycan coğrafi adları sırasında tarixi şəxsiyyətlər, görkəmli yazıçı, şair, ictimai-siyasi xadimlərin adını daşıyan yer adları – memuar-xatirə toponimlər adlanır. Məsələn, klassik ədəbiyyatın görkəmli nümayəndələri N.Gəncəvi, M.Füzuli, İ.Nəsimi, M.Ə.Sabir, C.Cabbarlı və başqalarının adını daşıyan Nizami kəndi (Goranboy, Şəmkir), Füzuli (rayon), Nəsimikənd (Saatlı), Fətəlikənd (Cəlilabad) və s. toponimlər bu qəbildəndir.

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 47-50
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 47-50
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Valeh Əlixanov**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0003-9617-2738
valehalixanov3@gmail.com
**Lalə Talıbova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0004-8259-8567
lalatalibova2013@gmail.com

# Azərbaycanda idmanın inkişaf tarixi

***Açar sözlər:*** *idman, mənəvi yüksəliş, olimpiya oyunları, idmanın növləri, bədən tərbiyəsi*
***Keywords:*** *sports, spiritual growth, Olympic Games, types of sports, physical education*

Bacarıqlı dövlət xadimi, təcrübəli siyasətçi Heydər Əliyevin dövlət rəhbərliyinə qayıdışı bütün sahələrdə inkişaf tempinin əsasını qoymuşdur ki, onlardan biri də idman sahəsidir. Ulu Öndər müxtəlif dövrlərdə hakimiyyətdə olduğu vaxtlarda xalqın sosial-iqtisadiyyatının, mədəni maarifinin, elminin, vətənin hərbi müdafiə qüdrətinin inkişaf etdirilməsi ilə yanaşı, xalqın sağlamlığının möhkəmləndirilməsinin keşiyində dayanmış, bədən tərbiyəsi və idmanın kütləvi hal alması, idmançıların böyük miqyaslı yarışlarda yüksək nəticələr əldə etməsi üçün müntəzəm olaraq iş aparmış və idmana hərtərəfli qayğı göstərmişdir. Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə idmanın cəmiyyətdə rolunun artmasında xidmətləri əvəzsizdir. Ulu Öndər gənc nəsli həvəsləndirmək, bu sahədə uğurların əldə edilməsi və davamlı olması üçün əlindən gələni əsirgəmirdi. Əbədiyaşar liderin apardığı siyasətin layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyev də idman və bədən tərbiyəsinin inkişafı

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

sahəsində kompleks tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayır, respublikamızın idman imicinin yüksəlməsinə çalışır. Bu səbəbdən rayonlarımızda idmanla məşğul olmaq üçün müasir tələblərə cavab verən infrastrukturun formalaşdırılması mühüm vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir.

1991-ci ilin 18 oktyabrında Azərbaycan dövlət müstəqilliyini bərpa etsə də, müstəqilliyin ilk illərində ölkədə anarxiya hökm sürürdü. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi respublika idmanına ciddi zərbələr vurmuş, onun inkişafına kəskin şəkildə mane olmuşdur. 1990-1993-cü illərdə bir çox idman bazaları baxımsızlıq üzündən yararsız vəziyyətə düşmüşdü. Milli Olimpiya Komitəsi 1992-ci il yanvarın 14-də keçirilən ümumrespublika konfransında təsis edilmişdir. 1993-cü ilin oktyabrında Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra ölkədə idmana münasibət dəyişdi. Azərbaycan Prezidenti Respublikada Olimpiya hərəkatının və idmanın inkişafına həmişə böyük diqqətlə yanaşırdı.

23 dekabr 1997-ci ildə Milli Məclis "Bədən tərbiyəsi və idman haqqında" Qanun qəbul etmişdir. Azərbaycan Prezidentinin 2005-ci il 4 mart tarixli sərəncamı ilə hər il martın 5-i ölkəmizdə "Bədən tərbiyəsi və idman günü" kimi qeyd olunur. 30 iyun 2009-cu ildə "Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu" təsdiq edilmişdir.

Olimpiya oyunlarında iştirakımızın bu günə qədərki tarixinin ən parlaq səhifələri 2000-ci ildə Avstraliyanın Sidney şəhərində keçirilmiş XXVII Yay Olimpiya oyunlarından etibarən yazıldı. Daha sonra idmançılarımız 2004-cü ildə keçirilmiş Afina olimpiya oyunlarında 202 ölkə sırasında 50-ci yeri, 2008-ci ildə Pekində keçirilən 29-cu Olimpiya oyunlarında komanda hesabında 39-cu yeri, 2012-ci ildə keçirilən XXX London Yay Olimpiya oyunlarında 204 iştirakçı ölkə arasında

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

30-cu yeri, 2016-cı ildə Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiyasında 39-cu yeri tutdular. 2015-ci il iyunun 12-də Bakı Olimpiya Stadionunda "Bakı-2015" birinci Avropa Oyunlarının təntənəli açılış mərasimi keçirildi. Azərbaycan atletləri birinci Avropa Oyunlarında ümumilikdə 56, o cümlədən 21 qızıl medal, 15 gümüş və 20 bürünc medal qazanaraq qitə üzrə ikinci yeri tutmaqla, idman ölkəsi olduğunu bir daha sübuta yetirdi. 12-22 may 2017-ci il tarixlərində Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirildi. İkinci Avropa Oyunları 2019-cu il iyunun 21-dən 30-dək Belarusun paytaxtı Minsk şəhərində keçirilib. Azərbaycan idmançıları sözügedən yarışı 28 medalla başa vurdular. İdmançılarımız 5 qızıl, 10 gümüş, 13 bürünc medal qazandılar. 2019-cu ilin iyul ayında Bakıda təşkil olunmuş XV Avropa Gənclər Yay Olimpiya Festivalı gələcəyin idman ulduzlarının növbəti zəfər meydanı oldu. İdmançılarımız 23 medal qazanmış və ümumi komanda hesabında 4-cü olmuşdur. Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında 3 gümüş və 4 bürünc medal qazanan Azərbaycan idmançıları yarışı 67-ci, medalların sayına görə 31-ci sırada tamamladılar. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamda, Azərbaycan gənclərini sağlam və fəal həyat tərzinə təşviq etmək və onların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədi ilə 2013-2023-cü illəri əhatə edən İnkişaf Strategiyası həyata keçirilir. 2020-ci ildə rəşadətli Ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı 44 gün ərzində düşmən əsarətindən azad etdi. Vətən müharibəsində 988 nəfər idmançı döyüşlərdə iştirak edib. Onlardan 320 nəfər Vətən müharibəsində şəhidlik zirvəsinə ucaldı. Azad olunmuş torpaqlarda artıq idman tədbirləri təşkil olunur. 2022-ci il martın 20-də Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

rayonunun Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı oldu. Suqovuşan qəsəbəsində avarçəkmə, kayak və kanoe üzrə "Prezident kuboku-2022" reqatası start götürdü. 2023-cü il mayın 4-də Suqovuşan su anbarında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilən "Prezident Kuboku-2023" beynəlxalq reqatasının açılış mərasimi keçirildi. Yarışda bu dəfə 20 ölkədən 100-dək idmançı qalib adı uğrunda mübarizə apardı. 2023-cü il ərzində respublikada 318 ölkə miqyaslı, 91 beynəlxalq miqyaslı turnir təşkil olunub. 2023-cü ildə Azərbaycan idmanında, ümumilikdə isə Azərbaycanın müasir tarixində əlamətdar hadisə baş verdi – son 30 ildə ilk dəfə olaraq Xankəndində rəsmi futbol matçı baş tutdu. Dekabrın 21-də Xankəndi şəhər stadionunda Azərbaycan Kubokunun 1/8 final mərhələsinin "Qarabağ" - MOİK matçı keçirilib. Dövlətimizin başçısı oyundan əvvəl stadionda çıxış edib.

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 51-54
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 51-54
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Gülnar İsmayılova**
DİN Daxili Qoşunların Hərbi İnstitutu
https://orcid.org/0009-0004-0045-961X
gulnarqebleyeva@gmail.com

# Azərbaycan dilində elmi məqalələrin yazılması və təqdimatında qarşıya çıxan problemlər

***Açar sözlər:*** *elm, məqalə, təqdimat, dil, kommunikasiya*
***Keywords:*** *science, article, presentation, language, communication*

Dövrün qabaqcıl universitetlərinin ən başlıca ideya komponentini akademik savadlılıq konsepsiyası təşkil edir. Akademik savadlılıq, akademik ünsiyyətin başlıca komponentidir. Akademik kommunikativlik səriştəliliyinin əsası müəyyən fənlərlə ABŞ və Avropa universitetlərində tədris edilir. Akademik səriştəliliyin, savadlılığın formalaşdırılmasında akademik mətnlərin tərtibinin öyrənilməsi və beynəlxalq normalara əsasən elmi məqalələrin yazılma qaydalarının öyrənilməsi vacib şərtlərdən biridir. Burada məqsəd mətnlərin necə yazılmasını mənimsətmək və problemli şəxsi tədqiqat işlərinin istiqamətlərini müəyyən etmək və yazmaq bacarıqlarını inkişaf etdirməkdir. Bu ənənə ABŞ və Avropa universitetlərinin ayrılmaz tərkib hissəsi kimi daima diqqət mərkəzindədir.

Elm anlayışı, elmi biliklərin əldə olunması ilə bağlı olan yaradıcılıq fəaliyyətini əhatə edən: insan, idarə və təşkilatlar, cihaz və avadanlıqlar, elmi-tədqiqat işləri kimi təşkiledicilərdən ibarətdir. Elmlə məşğul olan insanın əsas məqsədi bir tərəfdən obyektiv bilikləri əldə etməkdən, digər tərəfdən onları nəzəri cəhətdən sistemləşdirməkdən ibarətdir. Ümumilikdə, elm – insanların mənəvi fəaliyyəti olub, təbiət, cəmiyyət haqqında

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

biliklərin əldə olunması, həmçinin, real faktlar və onlar arasında mövcud olan qarşılıqlı əlaqə əsasında həqiqətin öyrənilməsi və yeni qanunauyğunluqların aşkara çıxarılmasından ibarətdir. Müəyyən həyat hadisələrinin qanunauyğunluğunu və səciyyəvi cəhətlərini aydınlaşdırmaq, faktlarla ictimai-siyasi mahiyyətini, əməli əhəmiyyətini aşkara çıxarmaq məqalənin fərqləndirici xüsusiyyətidir.

Elmi nəşrin məqsədi odur ki, alimlərin öyrənilmiş elmi mövqelərinə və özünün eksperimental işinə əsaslanaraq, müəllif, işlənən problemə öz baxışını ortaya qoysun. Bu özündə aşağıdakıları ehtiva edir:

- ✓ tədqiqat zamanı istifadə etdiyiniz elmi yanaşma, metodologiya və konsepsiyanın yeniliyinin əsaslandırılması;
- ✓ tədqiq olunan proses və ya fenomenin qanunauyğunluqlarının və meyillərinin açıqlanması;
- ✓ təcrübə zamanı əldə edilmiş nəticələrin təhlili;
- ✓ nəticələr və tövsiyələr.

Tədqiqatın nəticələrinin dərci müəllifin əsas fikirlərini geniş auditoriyaya çatdırmağa imkan verir. Tədqiqat elə bir formada olmalıdır ki, tədqiq olunan mövzu dar mənada deyil, geniş mənada araşdırılmalı, ona minimum vaxt sərf edilməlidir. Tezis elmi və ya elmi-praktik konfransda, simpoziumda məruzənin əsas müddəalarını aydın, qısa, lakin mənalı şəkildə ortaya qoymalıdır. Bu ona görə edilir ki, oxucu öyrənilən mövzu üzrə aparılan tədqiqatın əsas istiqamətlərini daha yaxşı təsəvvür edə bilsin. Tezislər hazırlayarkən uzun ifadələrə qapılmamalı və mətn rəqəmsal materiallar, qrafiklər, cədvəllərlə doldurulmamalıdır. Tədqiqatın əsas müddəaları aydın və qısa şəkildə ifadə edilməlidir. Dilçilikdə elmi mətnlərin tərtibinə verilən tələblər müxtəlifdir. Rus dilçiləri E.Yarskaya-Smirnova, V.V.Radayev, İ.B.Korotkina "elmi mətn" anlayışını "akademik mətn" anlayışı ilə eyniləşdirərək həm tələbələrin, həm də alimlərin elmi işlərini

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

"akademik" termini ilə ifadə edirlər. Beynəlxalq aləmdə alimlər elmi mətnlərin tiplərini müxtəlif kateqoriyalara bölürlər:

1. İlkin janrlar: məqalə, monoqrafiya, resenziya (rəy), dərslik və ya dərs vəsaiti, məruzə, çıxış, prezentasiya, mühazirə, dissertasiya;

2. Sonrakı janrlar (yəni ilkin janrlar əsasında onların həcmlərinin qısaldılması yolu ilə yaranan mətnlər: annotasiya (məqalə, məruzə, dissertasiya və ya kitab haqqında qısa məlumat), avtoreferat (dissertasiyanın qısaldılmış şərhi, tezis (məqalə və ya çıxışın materiallarının qısa təsviri, xülasəsi), konspekt (bir və ya bir neçə ilkin mətnin əsas müddəaları);

3. Tədris-metodik: dərs vəsaiti, iş proqramı, metodik göstərişlər;

4. Elmi-tədris: mühazirə, məruzə, seminarda çıxış, kurs işi, esse, referat (İsmayılova, 2021, s. 41; Qurbanzadə, 2019; Mərdanov, Həsənova, 2018; Məmmədli, 2021).

Elmi məqalə aparılmış tədqiqatın konkret probleminə həsr olunmuş, ardıcıl və dolğun görünüşə malik əsərdir. Ətraflı arqumentasiya tələb edən ən əhəmiyyətli elmi nəticələri əks etdirmək üçün istifadə olunur. Elmi məqalələrin əsas təqdimat forması nəşr formasıdır. Lakin müasir dövrdə internet texnologiyasının inkişafı ilə əlaqədar olaraq bəzi mətbəələr (təşkilatlar) elmi məqalələrin elektron formasını müxtəlif saytlarda yerləşdirməklə oxuculara təqdim edirlər. Məqalənin həcmcə çox böyük olmaması tədqiqatçı yaradıcılığının müxtəlif baxışlarını araşdırmağa imkan yaradır. Elmi məqalə çox vaxt böyük tədqiqatın bir hissəsi kimi də nəşr olunur. Elmi məqalə – aparılmış tədqiqat işinin aktuallığı, hesabatı və nəticələrini lakonik və aydın şəkildə əks etdirməlidir. Oxucunun bu məqaləyə lazımi qiymət verə bilməsi üçün məqalədə kifayət qədər məlumat, əsaslandırıcı material və informasiya mənbələrinə istinadlar olmalıdır. Məqalə digər nəşrlərə təqdim olunmamış yeni nəzəri

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

və praktiki tədqiqatların nəticələri olub, mümkün qədər mükəmməl redaktə olunmalı və elmi məqalələrin tərtibinə qoyulan tələblərə cavab verməlidir. Yaxşı elmi məqalə yazmaq üçün, ilk növbədə, onun planını tərtib etmək və elmi üslubun tələbinə riayət etmək lazımdır. Bu, məqalənin oxucu tərəfindən birmənalı qəbul edilməsini və onda verilən məlumatların qiymətləndirilməsini təmin edir. Elmi üslubun əsas xüsusiyyətləri – məntiqlilik, birmənalılıq və obyektivlikdir (ARMNA, 2015, s. 4).

Beləliklə, yuxarıda qeyd olunanları nəzərə alaraq elmi dünyagörüş bunu deməyə əsas verir ki, peşəkar elmi cəmiyyətlər çox əhəmiyyətli problemlərin həlli, yeni elmi ideyaların irəli sürülməsi və elmi dairələr daxilində işlənməsi üçün mütəxəssislərin cəlb olunmasına imkan verən təşkilati resurslara və informasiya bazalarına malik olmalıdır. Eyni zamanda, elmi ideyaların qəbulu üçün o, elmi ədəbiyyata əsaslanan elmi kriteriya və metodlara uyğun tərtib olunmalıdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Akademiyası. (2015). Elmi məqalələrin yazılma metodikası. https://www.researchgate.net/publication/367188474_ELMI_MQALLRIN_YAZILMA_METODIKASI
2. Qurbanzadə, A. (2019). *Elmi tədqiqata giriş*. “Kooperasiya” nəşriyyatı.
3. İsmayılova, M. (2022). *Azərbaycan dilində akademik kommunikasiyanın aktual problemləri*. ADPU.
4. Mərdanov, M., Həsənova, A. (2018). Nüfuzlu elmi jurnallara məqalə hazırlamağın yolları. *“Azərbaycan məktəbi” jurnalı*, (4).
5. Məmmədli, N. (2021). *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya*. Dərslik. “Elm və təhsil

**Gunel Mammadova**
Azerbaijan State Pedagogical University
https://orcıd.org/0000-0002-6248-9265
gunelmemmedova2806@gmail.com

# Parental Attitudes Toward Tablet use in Preschool Children

***Keywords:*** *preschool education, parental attitudes, multifunctional capabilities, smartphone use, personal habits*
***Açar sözlər:*** *məktəbəqədər tədris, valideyn münasibətləri, çoxfunksiyalı imkanlar, smartfon istifadəsi, şəxsi vərdişlər*

This study was conducted to examine parents' attitudes toward tablet use among preschool – aged children. Data were collected from 221 parents living in the Orhangazi district of Bursa, Turkey. The instruments used included a personal information form and a scale measuring parents' attitudes toward tablet use. The collected data were analyzed using the SPSS 22.0 statistical software. The results revealed that parents' overall attitude was at a relatively low level. Parents' attitudes toward tablet use were analyzed with respect to the children's age, but no significant differences were found between age groups-meaning parents' attitudes remained similar across different ages. Additionally, there were no significant differences in parental attitudes according to education level in the subscales of "distraction," "benefit," and "knowledge." However, parents with a high school or bachelor's degree exhibited higher levels of "control" – oriented attitudes compared to parents with high school or lower education levels.

While telephones were once used solely for verbal communication, the invention and rapid advancement of

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

smartphones have endowed them with multifunctional capabilities. Today, smartphones have become an indispensable part of daily life, offering users access to emotional expression (happiness and sadness), information, entertainment, and other conveniences. Smartphone use has also led to fundamental changes in personal habits and social behavior. The primary purpose behind the creation of smartphones was to ensure accessibility at any time and place. This accessibility is crucial in emergency situations like earthquakes, accidents, or heart attacks. Smartphones also fulfill families' needs for security and supervision of their children. Moreover, smartphones provide a sense of safety; research indicates that young women, especially when alone at night, feel safer using a smartphone. This "sense of safety and protection" is considered a key factor contributing to the decreasing age of first obtaining a smartphone.

Children born into this digital era are naturally inclined toward and interested in technology. While smartphones offer opportunities that facilitate children's lives, they also expose them to more negative effects than adults. These negative impacts are influenced by developmental characteristics of childhood: children have not completed their psychosocial development, are still discovering identity, lack full control over their behavior, prioritize pleasure over reality and personal needs, are open to new experiences, lack sufficient decision-making abilities, and are highly motivated to be liked and praised.

Modern smartphones are portable devices combining multimedia, MP3, camera, video recording, internet access, and gaming functions. Market competition has led to the availability of apps tailored to every age and temperament. Personal-use devices offer nearly unrestricted internet access, media interaction, and gaming options that make parental control

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

virtually impossible. Parents often introduce such devices to occupy, calm, monitor, or support the education of their children. While parents attempt to maintain control through these tools, they sometimes struggle to fully manage their children's activity and may even conflict with them. Digital games are particularly popular among younger age groups, and today's games cater to all ages and personality types. When monitored and used appropriately, video games-like other forms of children's play – can positively affect emotional regulation, stress reduction, multi-faceted thinking, and decision-making skills. However, ignoring content or losing control of time spent increases the risk of addiction to such games.

Parents may use their phones or computers as substitutes for caretakers-especially when there are no safe play areas, during long work hours, or when children live alone at home. While this approach may provide convenience, it increases the likelihood of constant and intense phone use by children, making them more prone to problematic use. Mobile phones, televisions, computers, and internet technologies have become integral to our lives, and technology's rapid evolution brings both convenience and various issues. Excessive use can distance children from school and social life. Children who prefer internet-based social interaction may struggle with real-life social environments, leading to diminished social skills, loneliness, and other problems. Families often believe that children are protected from the harmful effects of mobile devices when they use educational programs. Even so, educational programs can still distract children to other content.

Given the significance of this phenomenon in daily life, families often do not fully understand the rules of mobile device use. Therefore, families need guidelines that explain proper usage rules-and this need will continue into the future. The

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

integration of technology into daily life significantly affects families, parent-child relationships, and child development. Depending on their nature and usage, technological devices can have both positive and negative outcomes. While technology may facilitate children's socialization, it can also isolate them from real social environments. Excessive use can lead to various types of addiction and health issues. Thus, this study investigates strategies formed by parents and children for the proper use of technological devices and seeks to increase parents' awareness of their attitudes and behaviors toward their children. This research is important because it provides parents-along with behavioral researchers and educators – with warning and guidance information, supports early identification of parenting styles, timely preventive measures, and the fostering of healthy individuals. Additionally, the study contributes both theoretically and practically to the literature in this field.

Research Model: This study was prepared based on the "survey model," which is a quantitative research type that allows determining population attitudes, opinions, and tendencies through surveys or interviews applied to selected samples.

Data Collection Instruments: A personal information form and a parent attitude scale regarding tablet use habits were used. The scale was developed by Urfa (2020) and includes 24 items across four subscales-distraction, benefit, control, and knowledge. Urfa (2020) reported a high reliability of 0.890. In this research, the reliability of the scale (Cronbach's Alpha) was also found to be high at 0.914.

Statistical Analysis: Collected data were analyzed using SPSS 22.0. Frequency and percentage analyses were used to determine descriptive characteristics of the participants; mean and standard deviation were used to evaluate the scale. Kurtosis and skewness values were assessed to check normal distribution

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 55-60
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 55-60
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

– per the literature, kurtosis and skewness values between -1.5 and +1.5 or -2.0 and +2.0 indicate normal distribution – and the study variables met these criteria. Parametric methods were used for analysis; correlations and regression analyses were conducted to examine relationships between scale dimensions. T-test, one-way ANOVA, and post hoc tests (Tukey, LSD) were used to determine differences based on parents' descriptive characteristics. The study involved 221 volunteer parents, and their attitudes toward tablet use were measured across four subscales: distraction, benefit, control, and knowledge. On a 5-point scale, the average scores were: -Distraction: 2.062; -Benefit: 2.102; -Control: 3.343; -Knowledge: 1.911. These results indicate that parents' overall attitudes toward tablet use were at a low level. Child's age did not significantly affect parents' attitudes – attitudes were similar across different age groups. Education level did not significantly influence the distraction, benefit, or knowledge subscales. However, the control subscale differed significantly: parents with a high school or bachelor's degree showed higher control – oriented attitudes than those with high school or lower education levels. Employment status, gender, marital status, age of parent, and whether the child had their own tablet did not significantly affect attitudes. Based on the study findings, the following recommendations were made: -Provide training for parents on proper technology use to support children's healthy growth and development. Develop educational programs aimed at reducing harmful effects of technology use in children and fostering skills such as responsibility, awareness, and sensitivity – supported by family awareness research. -Pay particular attention during periods when children use technology more frequently. Ensure children engage in other essential developmental activities within designated timeframes. This approach helps maintain

controlled use of technology content. -During holiday periods, when children’s technology use typically increases, parents should apply more active supervision. Families can establish general usage principles and encourage shared space use of devices. -To prevent children’s addiction to technology, parents can involve them in social activities. Broader-scale application of measurement tools and statistical studies could yield varied results.

*Elm və Təhsilin Əsasları* **XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 61-63**
*Fundamentals of Science and Education* **XVI International Scientific Conference 1 november 2025 / 61-63**
**https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025**

**Qadir Əliyev**
Naxçıvan Dövlət Universiteti
htpps://orcid.org/0009-0002-6765-9099
qismemi@gmail.com

# İdmanda yaranan zədələrdən qorunma üsulları və rice terapiya

***Açar sözlər:*** *idman, zədə, rice terapiya, müalicə, tibbi yardım*
***Keywords:*** *sports, injury, rice therapy, treatment, medical care*

Bütün dünyada idman zədələrinin müalicəsinin təməl daşı RİCE-therapy sayılır: *R – rest (sakitlik); İ – ice (buz); C-compression (təzyiq); E – elevation (qaldırılma).*

Bu metodla müalicə zədə baş verdikdən dərhal sonra həyata keçirilməlidir. Yadda saxlayın – zədə aldıqdan sonrakı ilk 20-30 dəqiqə ərzində və sonra tətbiq edilən RİCE, idmançının bir neçə gün və ya hətta bir neçə həftə tez sıraya dönməsinə kömək edə bilər.

*Sakitlik:* Ağrı hiss edən kimi, dərhal məşqi dayandırın, çünki, yükləmələrin davam etdirilməsi zədələnmiş sahənin vəziyyətinin mütləq daha da pisləşməsinə səbəb olacaqdır. Əzanın ilk 3 gün ərzində immobilizasiyası məsləhət görülür (oynaqları fiksə edən brace vurulması).

*Buz:* Müalicənin növbəti mərhələsi krioterapiyadır – zədəli yerin soyudulması. Soyuğun tətbiq edilməsi iltihab prosesini xeyli dərəcədə azaldır, şişi, ağrı hisslərini azaldır, zədəli sahəni əhatə edən toxumalarda oksigen sərfiyyatını aşağı salır ki, bu səbəbdən zədə zonasının ətrafındakı hüceyrələr yaşaya bilərlər, bu da nekroz sahəsini və toxumaların kobud qaysaqlanmasının

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 61-63
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 61-63
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

yaranmasını azaldır. Fövqəladə hallarda, dərinin sağlam olması şəraitində, zədəli sahədən 20-30 sm məsafədən, 5-8 dəqiqəlik olmaqla bir neçə dəfə soyuqverici spreydən (coolant cold spray) istifadə edin.

Krioterapiya metodunun ən geniş yayılmış forması zədələnmiş yerə buz paketinin qoyulmasıdır. Mərkəzdə mütləq bir az isladılmış dəsmal olmalıdır ki, dərinin üst qatının don vurmasına yol verilməsin. Adi buzdan əlavə, birdəfəlik kimyəvi buzlardan da istifadə etmək olar ki, hermetik paketlərdə istehsal edilir və yüngül zərbədən sonra soyutmağa başlayır (cold pack). Çiyin, bazu önü və baldırlar üçün əvvəlcədən dondurulmuş sərinləşdirici lentdən (muellerkold wrap) istifadə etmək rahatdır, pəncə-daban oynaqlarının dartılması halında isə xüsusi sərinləşdirici fiksatordan (cold therapy gel brace) istifadə edilir.

Soyuq 20-30 dəqiqə ərzində 45 dəqiqəlik fasilələrlə ilk sutka ərzində və 20 dəqiqəlik olmaqla 1-2 saatlıq fasilələrlə sonrakı iki gün ərzində tətbiq edilir. Krioterapiyanın müddəti zədələnmə yerindən asılı olmaqla dəyişir, məsələn, diz və pəncə-daban oynaq birləşmələri üst qata yaxın yerləşir, buna görə də onların soyudulması üçün daha az vaxt tələb olunur, nəinki bel əzələlərinin zədələnməsi zamanında.

*Təzyiq:* Zədəli zonada şişin azaldılması üçün sarğı şəklində təzyiqdən istifadə edin. Erkən bintləmə toxumaların stabilləşməsinə yardım edir və mikro qanaxmaları azaldır. Sarğı qoyularkən əsas qaydaları yaddan çıxarmayın – ilk turu zədədən 3-4 sm aşağıdan başlayın və spiral üzrə örtən dövrələrlə yuxarıya doğru hərəkət edin, dərinin rəngini, hərarəti və sarğıdan aşağıda olan sahənin hissetməsini yoxlayın ki, sinir və arteriyaların həddən artıq sıxılmadığına əmin olasınız. Təzyiqin göstərilməsi zədədən dərhal sonra və ilk sutkalar ərzində daha aktual olur.

*Qaldırma:* Zədə yerini ilk iki gün ərzində qanaxmanın azalması və toxumaların şişinin yatması məqsədi ilə yuxarı

qaldırılmış vəziyyətdə saxlanması çox mühümdür. Ayaqlar üçün hündür yastığın, əllər üçün isə xüsusi sarğının istifadə edilməsi daha rahatdır. İlk 72 saat ərzində isidici vasitələrdən istifadə etməyin və zədəli zonanı massaj etməyin. Qeyri-steroidli iltihaba qarşı olan gel növlü preparatlardan istifadə etmək məsləhət görülür – Fastum gellə bərabər ölçüdə Lioton gel – gün ərzində 4-5 dəfə, 5%-lik Diklak, Finalgel və s., həmçinin, Voltaren həbləri, ilk 3-5 gün ərzində, yeməkdən sonra gündə 1 dəfə 100 mq olmaqla. RİCE və iltihab əleyhinə preparatlar – əlbəttə, bunlar ilk tibbi yardımı göstərmək üçün olan ilkin müalicə mərhələsinin metodlarıdır. Yekun diaqnozun müəyyən edilməsi və müalicənin aparılması üçün, eləcə də mümkün ola biləcək ağırlaşma hallarında mütləq idman travmatoloquna müraciət edin. Ümid edirik ki, RİCE metodu prinsipləri, eləcə də onların vaxtında tətbiq edilməsi sizə zədələrdən tezliklə sağalıb sıralarımıza dönməyə imkan verəcəkdir.

*Elm və Təhsilin Əsasları* **XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 64-66**
*Fundamentals of Science and Education* **XVI International Scientific Conference 1 november 2025 / 64-66**
**https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025**

**Elşən Əsgərov**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0000-3535-5707
asgarovelshan72@gmail.com

# Müəssisə maliyyəsinin idarə olunması

***Açar sözlər:*** *müəssisə maliyyəsi, davamlı inkişaf, strateji planlaşdırma, səmərəli fəaliyyət, rentabellik*
***Keywords:*** *corporate finance, sustainable development, strategic planning, efficient operation, profitability*

Müasir iqtisadi şəraitdə müəssisələrin dayanıqlı inkişafının təmin olunması üçün onların maliyyə fəaliyyətinin düzgün və elmi əsaslarla idarə olunması mühüm əhəmiyyət daşıyır. Müəssisə maliyyəsi – müəssisənin fəaliyyətini təmin edən maliyyə resurslarının formalaşması, bölgüsü və istifadəsi proseslərini əhatə edən iqtisadi kateqoriyadır.

Maliyyə idarəetməsinin səmərəliliyi birbaşa müəssisənin gəlirliliyi, rentabelliyi, likvidliyi və maliyyə sabitliyi ilə əlaqəlidir. Müəssisə maliyyəsi hər bir təsərrüfat subyektinin fəaliyyətində mühüm rol oynayır. Müəssisənin maliyyə sistemi onun resurslarının formalaşması, bölgüsü və istifadəsi proseslərini əhatə edir. Effektiv maliyyə idarəetməsi müəssisənin dayanıqlı inkişafını, rəqabət qabiliyyətini və gəlirliliyini təmin edən əsas amillərdəndir. Müəssisə maliyyəsi, bazar iqtisadiyyatı şəraitində istehsal, xidmət və kommersiya müəssisələrinin iqtisadi münasibətlər sistemində iştirakının maliyyə tərəfini təşkil edir. Onun əsas vəzifələrinə aşağıdakılar daxildir: -Maliyyə resurslarının formalaşdırılması; -Xərclərin planlaşdırılması və optimallaşdırılması; -Mənfəətin idarə olunması və reinvestisiya siyasəti;

-Maliyyə risklərinin azaldılması. Müəssisə maliyyəsinin əsas funksiyaları bunlardır:

*Paylayıcı funksiya* – gəlir və mənfəətin müəssisə daxilində müxtəlif istiqamətlər üzrə bölüşdürülməsi;

*Nəzarət funksiyası* – maliyyə göstəriciləri vasitəsilə xərclərə və gəlirlərə nəzarətin təmin edilməsi;

*Tənzimləyici funksiya* – maliyyə siyasətinin müəssisənin inkişaf istiqamətinə təsir göstərməsi;

*Stimulverici funksiya* – mənfəət və bonuslar vasitəsilə işçilərin və rəhbərliyin motivasiyasını artırmaq.

Müəssisə maliyyəsi yalnız konkret müəssisənin deyil, ümumilikdə ölkə iqtisadiyyatının inkişafında da mühüm rol oynayır. Müəssisə maliyyəsi müəssisənin səmərəli fəaliyyətinin təminatçısı, iqtisadi sabitliyinin və davamlı inkişafının əsas alətidir.

Səmərəli maliyyə idarəçiliyi müəssisənin iqtisadi sabitliyini gücləndirir, yeni iş yerlərinin yaradılmasına və iqtisadi artıma müsbət təsir göstərir. Pul axınlarının planlaşdırılması müəssisənin öhdəliklərini vaxtında yerinə yetirməsinə, həmçinin, investisiya imkanlarının artırılmasına şərait yaradır. Effektiv maliyyə idarəetməsi düzgün planlaşdırma, nəzarət və risklərin idarə olunması prinsiplərinə əsaslanmalıdır.

İqtisadi sabitlik ölkə iqtisadiyyatının uzunmüddətli və dayanıqlı inkişafını təmin edən vəziyyətdir. Müəssisə maliyyəsi müəssisənin kapitalının idarə edilməsi, gəlir və xərclərin tənzimlənməsi, investisiya və risklərin idarə olunması kimi funksiyaları yerinə yetirir. Maliyyə cəhətdən sağlam müəssisələr istehsal həcmini artırır, yeni iş yerləri yaradır və sabit və şəffaf maliyyə idarəçiliyi olan müəssisələr investorlar üçün cəlbedici olur.

Müasir iqtisadi şəraitdə rəqabətqabiliyyətli müəssisə yalnız o halda uğur qazana bilər ki, onun maliyyə strategiyası elmi əsaslarla formalaşdırılmış və bazar tələblərinə uyğunlaşdırılmış

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 64-66
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 64-66
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

olsun. Maliyyə baxımından sağlam müəssisələr uzunmüddətli layihələrə sərmayə qoya bilir. Maliyyə strategiyası düzgün seçilmiş müəssisələr rəqəmsal texnologiyalara və innovativ istehsal proseslərinə keçidə üstünlük verir. Bu həm istehsal səmərəliliyini artırır, həm də davamlı iqtisadi artım üçün yeni imkanlar yaradır.

Beləliklə, müəssisə maliyyəsi istənilən biznesin "qan dövranı" hesab olunur. Effektiv maliyyə siyasəti müəssisənin bazar şəraitində uzunmüddətli fəaliyyətini, investisiya cəlbediciliyini və sosial-iqtisadi inkişafını təmin edən əsas vasitədir. Azərbaycanda müəssisə maliyyəsi sistemi müasir iqtisadiyyatın tələblərinə uyğun şəkildə inkişaf etməkdədir. Kapital bazarlarının genişləndirilməsi, maliyyə resurslarının səmərəli idarə olunması və beynəlxalq maliyyə standartlarının tətbiqi müəssisələrin rəqabət qabiliyyətini artırır. Gələcəkdə müəssisə maliyyəsinin əsas prioriteti rəqəmsallaşma, risklərin azaldılması və innovativ maliyyə modellərinin tətbiqi olacaqdır.

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 67-68
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 67-68
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Vüsal Hüseynov**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0008-8362-3639
vusalhuseynov@ndu.edu.az

# İqlim və onun təsirlərinə dair ali təhsil proqramlarının effektivliyi

***Açar sözlər:*** *ali təhsil, iqlim, təhsil proqramları*
***Keywords:*** *higher education, climate, educational programs*

İqlim, sadəcə olaraq, ekoloji bir məsələ kimi deyil, artıq bəşəriyyətin bütün sahələrinin nəzər diqqətində olan ən mühüm mövzu halına gəlmişdir. İqlimdəki dəyişikliklərin neqativ təsirləri, onun qarşısının alınması tədbirləri də istər milli, istərsə də qlobal miqyasda müzakirə olunmaqdadır. Aidiyyəti beynəlxalq təşkilatlar, tənzimləyici qurumlar bu problemin həlli üçün qanunlar və qərarlar çıxarsalar da, nəticədə, onun əsl məsuliyyəti bəşəriyyətin özünə düşür. İnsanların iqlim haqqında münasibətləri və qavrayışlarının tədqiq edilməsi, iqlimin neqativ təsirlərinin qarşısının alınması üçün əhəmiyyətli dəcədə faydalıdır. Ali təhsil pilləsinin bu məqamda kritik rolu vardır. Ali təhsil alan tələbələr arasında iqlimin neqativ təsirləri və həlli yollarının necə başa düşüldüyünə dair dünya ölkələri arasında on minlərlə tədqiqat aparılsa da, ölkəmizdə isə bir qədər ləng hərəkət edilir. Apardığımız bu tədqiqat bu istiqamətdə zəmin mahiyyəti daşıyır.

Bu çalışmada iqlimdəki mövcud dəyişikliyin təsirləri, onu törədən amillər, onunla mübarizə üsulları, tətbiq olunan mövcud tədbirlər və insanlara düşən fərdi vəzifələrin nələr olduğu haqqında tələbələrin münasibətlərini qiymətləndirdik. Ali təhsil müəssisələrinin əksər fakültələrindəki müxtəlif ixtisaslarda bu

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

mövzuya aid dərslər tədris edilmir. Dəqiq elmlərdə, xüsusilə də ekologiya, ekologiya mühəndisliyi, coğrafiya və bənzər ixtisaslardan başqa digər sahələrdə, əsasən də sosil elmlər ixtisaslarında bu mövzuda tədris mövcud deyildir. Məhz bu səbəbdən də tələbələr iqlim və onun məsələlərinə dair məlumatları daha çox sosial şəbəkələrdən, internet resurslarından və ictimaiyyətdəki söhbətlərdən əldə etdikləri məlum olmuşdur.

Dəqiq elmlərin ixtisaslarında təhsil alan tələbələrin iqlim haqqındakı bilik səviyyələri isə bir qədər fərqlilik göstərir. Nəticələrdən məlum olmuşdur ki, akademik tədris illəri artdıqca iqlim haqqında ümumi biliklər də artan tendensiya ilə müşahidə olunur. Bir digər mühüm faktor ixtisas amilidir. Yəni əlaqədar ixtisaslardakı tələbələr iqlimin neqativ təsirləri və onun səbəblərinə dair daha da biliklidir.

Nəticə etibarı ilə ali təhsil pilləsində iqlim mövzusuna, xüsusən də sosial elmlərdə kifayət qədər yer verilmədiyi məlum olmuşdur. Lakin iqlimə dair ixtisaslardakı tələbələr müqayisədə daha da bilikli olduqlarını nümayiş etdirmişlər. Bu nöqteyi-nəzərdən ali təhsilin tədris proqramlarında iqlimə dair bütün ixtisaslar üzrə fundamental səviyyədə fənlər salınmalıdır. Beləliklə, ali təhsilli gələcək kadrların iqlimə dair elmi səviyyədə bilikli olmaları təmin oluna bilər.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Zahid Qəmbərov**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0008-8287-1155
zahidislam@mail.ru

# İnvestisiya fəaliyyətinin nəzəri, metodoloji əsasları

***Açar sözlər:*** *investisiya, iqtisadi inkişaf, kapital, metodologiya, bazar iqtisadiyyatı, innovasiya, risklərin idarə olunması*
***Keywords:*** *investment, economic development, capital, methodology, market economy, innovation, risk management*

İnvestisiya fəaliyyəti iqtisadiyyatın inkişafında əsas hərəkətverici qüvvələrdən biri kimi çıxış edir. İnvestisiya qoyuluşları yalnız istehsalın genişlənməsini deyil, həm də innovasiyaların tətbiqini, müəssisələrin rəqabət qabiliyyətinin artırılmasını və yeni iş yerlərinin yaradılmasını təmin edir. İqtisadi nəzəriyyələrdə investisiya anlayışı geniş mənada kapitalın müxtəlif formalarının – maliyyə, maddi və intellektual resursların – gələcək gəlir əldə etmək məqsədilə yerləşdirilməsi kimi qəbul olunur. Bu proses iqtisadi artımın dinamikliyini müəyyən edən əsas mexanizmlərdən biridir.

İnvestisiya fəaliyyətinin nəzəri əsasları iqtisadi məktəblərin baxış bucaqlarına görə fərqlənir. Klassik iqtisadçılar investisiyanı əsasən kapitalın yığımı və istehsal gücünün artırılması ilə əlaqələndirirdilər. Neoklassik yanaşma isə investisiyanın faiz dərəcələri və gözlənilən gəlirlilik arasında tarazlıq əsasında formalaşdığını irəli sürür. Keynsçi nəzəriyyədə isə investisiya qərarları daha çox sahibkarların gələcək gözləntiləri, bazar etimadı və dövlətin iqtisadi siyasətindən asılıdır. Müasir dövrdə

isə investisiya fəaliyyəti çoxölçülü bir anlayış kimi qəbul olunur və yalnız iqtisadi deyil, sosial, ekoloji və texnoloji amillərlə də sıx bağlıdır.

Metodoloji aspektlər baxımından investisiya fəaliyyətinin qiymətləndirilməsi üçün müxtəlif tədqiqat yanaşmaları mövcuddur. Ən çox istifadə edilən metodlardan biri xalis indiki dəyər (NPV) və daxili gəlirlilik norması (IRR) göstəriciləridir. Bu metodlar investisiya layihələrinin rentabelliyini müəyyənləşdirmək üçün əsas hesab olunur. Lakin sosial və ekoloji aspektlərin nəzərə alındığı müasir yanaşmalarda investisiyanın yalnız iqtisadi səmərəsi deyil, həm də dayanıqlılıq və sosial təsir parametrləri qiymətləndirilir.

İnvestisiya fəaliyyətinin metodologiyasında risk amilinin nəzərə alınması xüsusi əhəmiyyət daşıyır. İnflyasiya, valyuta dəyişkənliyi, siyasi qeyri-sabitlik və bazar qeyri-müəyyənliyi kimi amillər investisiya qərarlarının səmərəliliyinə təsir edir. Buna görə də müasir iqtisadi sistemlərdə risklərin idarə olunması modelləri – o cümlədən portfel diversifikasiyası, hedcinq və sığorta mexanizmləri – tətbiq edilir. Həmçinin, rəqəmsal texnologiyaların inkişafı nəticəsində maliyyə analitikası və proqnozlaşdırma vasitələrinin istifadəsi artmışdır ki, bu da investisiya qərarlarının daha elmi əsaslarla verilməsinə imkan yaradır.

İnvestisiya fəaliyyəti həm mikro, həm də makro səviyyədə mühüm funksiyalar yerinə yetirir. Mikro səviyyədə investisiyalar müəssisələrin istehsal potensialını artırır, innovasiyaların tətbiqini təmin edir və əmək məhsuldarlığını yüksəldir. Makro səviyyədə isə investisiyalar milli gəlirin artımını, dövlət büdcəsinin gəlir bazasının genişlənməsini və sosial rifahın yüksəlməsini təmin edir. Bu baxımdan, dövlətin investisiya siyasəti ölkənin iqtisadi prioritetlərinə uyğun şəkildə formalaşdırılmalıdır.

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 69-71
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 69-71
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

Azərbaycan iqtisadiyyatında son illərdə həyata keçirilən islahatlar investisiya mühitinin yaxşılaşdırılmasına xidmət etmişdir. Xüsusilə qeyri-neft sektoruna yönəlmiş investisiyalar iqtisadiyyatın şaxələndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Kənd təsərrüfatı, turizm, sənaye və logistika kimi sahələrdə investisiya axınlarının artması regional inkişafın və məşğulluğun dəstəklənməsinə töhfə verir. Eyni zamanda, xarici sərmayədarların cəlbi üçün hüquqi mühitin sabitliyi, vergi və gömrük güzəştləri, elektron xidmətlərin genişləndirilməsi kimi tədbirlər mühüm rol oynayır.

İnvestisiya fəaliyyətinin nəzəri və metodoloji əsaslarının inkişaf etdirilməsi Azərbaycanın uzunmüddətli iqtisadi strategiyasının mərkəzində dayanır. İnnovasiyalara əsaslanan, ekoloji məsuliyyətli və insan kapitalına yönəlmiş investisiya modellərinin tətbiqi milli iqtisadiyyatın rəqabət qabiliyyətini gücləndirəcəkdir. Bu məqsədlə dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi, maliyyə bazarlarının dərinləşdirilməsi və rəqəmsal investisiya platformalarının yaradılması vacib istiqamətlər kimi qiymətləndirilir.

Nəticə etibarilə, investisiya fəaliyyətinin nəzəri və metodoloji aspektlərinin kompleks şəkildə təhlili göstərir ki, bu fəaliyyət təkcə iqtisadi artımın deyil, həm də sosial sabitliyin, innovasiya inkişafının və milli təhlükəsizliyin təminatçısıdır. İnvestisiya qərarlarının elmi əsaslarla verilməsi, dövlət siyasətinin institusional mexanizmlərlə dəstəklənməsi və risklərə adaptiv yanaşmaların tətbiqi iqtisadiyyatın dayanıqlı inkişafını təmin edəcəkdir. Beləliklə, düzgün qurulmuş investisiya fəaliyyəti Azərbaycanın iqtisadi gələcəyinin formalaşmasında əsas strateji alət kimi çıxış edir.

**Günay Hadiyeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0000-2436-7286
gunaygadieva45@gmail.com

# Sosial şəbəkələrdə dil normativlərinin pozulması

***Açar sözlər:*** *sosial şəbəkələr, dil pozuntuları, normativ dil qaydaları, sosial media diskursu, rəqəmsal kommunikasiya, Azərbaycan dilinin müasir problemi*
***Keywords:*** *social networks, language violations, normative language rules, social media discourse, digital communication, contemporary issue of the Azerbaijani language*

Müasir dövrdə sosial şəbəkələrin insan həyatının bütün sahələrinə nüfuz etməsi, ünsiyyət formasında ciddi dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklərin ən bariz təzahürü isə dilin istifadə formasında – yəni normativ qaydaların pozulmasında özünü göstərir. Sosial platformalarda yayılan yazılı mətnlərdə orfoqrafik, sintaktik və üslubi uyğunsuzluqların artması, Azərbaycan dilinin mövcud normativ sistemini təhdid edən faktorlardan biri kimi çıxış edir (Həsənli, 2020). Məlumdur ki, dil yalnız kommunikasiya vasitəsi deyil, həm də mədəniyyətin daşıyıcısı və milli kimliyin əsas göstəricisidir. Bu səbəbdən sosial şəbəkələrdə dilin düzgün istifadəsi yalnız fərdi məsuliyyət deyil, ictimai və elmi nəzarət tələb edən mühüm məsələdir.

Sosial media diskursunun əsas xüsusiyyətlərindən biri sürətli, qeyri-rəsmi və emosionallığa əsaslanan yazı formasıdır. Bu xüsusiyyətlər klassik yazılı və şifahi ünsiyyətdən fərqli olaraq normativ strukturun pozulmasına yol açır. Burada daha çox

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 72-76
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 72-76
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

abbreviaturalar, emojilər, qeyri-standart yazılış formaları və dilin strukturuna uyğun gəlməyən ifadələrə rast gəlinir (Yusifova, 2019). Məsələn, sosial şəbəkələrdə yazılan cümlələrin başlanğıcında böyük hərf istifadə olunmaması, durğu işarələrinin tamamilə buraxılması və ya qeyri-dəqiq yerləşdirilməsi, orfoqrafik qaydalara əməl olunmaması bu diskursun əsas mənzərəsini təşkil edir.

Sosial şəbəkələrdə dil pozuntuları müxtəlif formalarda özünü göstərir. Ən geniş yayılmış formalar orfoqrafik və morfoloji pozuntulardır. Məsələn, "heçnə" əvəzinə "heç nə", "qayıtdım" əvəzinə "qaytdım" və ya "bağışlayın" əvəzinə "bagislayn" kimi yazılışlar istifadə olunur (Əliyev, 2021). Bu cür yanlış formalar həm dilin strukturuna ziddir, həm də oxucu üçün anlaşılmazlıq yarada bilər. Sintaktik səviyyədə isə cümlə quruluşunun pozulması, yəni sözlərin məntiqi ardıcıllığının itməsi və ya cümlə üzvləri arasında əlaqənin olmaması halları müşahidə edilir. Bundan əlavə, dil üslubunun pozulması da sosial şəbəkələrdə geniş yayılmışdır.

Bundan əlavə, üslub normalarının pozulması da bu platformalarda geniş yayılmışdır. Xüsusilə istifadəçilərin çoxu yazı zamanı normativ cümlə quruluşuna və ifadə ardıcıllığına diqqət yetirmir. Məsələn, sosial şəbəkələrdə tez-tez rast gəlinən "Dünən getdi məktəbə qardaşım" kimi cümlədə sözlərin məntiqi düzülüşü pozulmuşdur. Halbuki bu fikir ədəbi dildə "Qardaşım dünən məktəbə getdi" formasında ifadə olunmalıdır. Eyni hal "Sizə təşəkkür bildirirəm çox" cümləsində də müşahidə olunur. Bu cür cümlələrdə fikrin təqdimatı qrammatik və üslubi baxımdan natamam olur. Bu fikir daha səlis şəkildə "Sizə dərin təşəkkürümü bildirirəm" kimi yazıla bilər.

Bəzi hallarda isə fikrin ifadəsi ümumiyyətlə dilin sintaktik qaydalarına uyğun olmur. "Mən çox maraqlı idi bu filmə baxmaq" cümləsi buna nümunədir. Burada subyekt və predikat

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

arasında əlaqə qopmuş, fikrin axıcılığı pozulmuşdur. Doğru forma "Bu filmə baxmaq mənə çox maraqlı gəldi" şəklində olmalıdır.

Üslubi baxımdan isə danışıq dilinə xas elementlərin yazılı ünsiyyətə daxil edilməsi xüsusilə gənc istifadəçilər arasında geniş yayılmışdır. Məsələn, "Qaqaş, bu nə qəşəng temadı e" kimi ifadə rəsmi və normativ dil üslubundan uzaqdır. Ədəbi dildə bu fikir "Bu mövzu olduqca maraqlıdır" şəklində verilməlidir. Həmçinin, "Heçnə başa düşmədim, vallah!" kimi ifadələrdə emosionallıq və qeyri-rəsmi dil üslubu normativ qaydaları kölgədə qoyur. Belə fikirlər, rəsmi yazıda "Məlumat kifayət qədər aydın təqdim edilmədiyindən, anlaşıqlı olmadı" kimi daha uyğun formada təqdim olunmalıdır.

Bu cür sintaktik və üslubi pozuntular, sosial şəbəkələrdə fikir çatdırmaq istəyən şəxslərin dil qaydalarına diqqətsiz yanaşmasının nəticəsidir. Eyni zamanda bu hallar dilin ictimai istifadəsində keyfiyyətin aşağı düşməsinə və yazı mədəniyyətinin zəifləməsinə səbəb olur. Tələbə olaraq müşahidə etdiyim odur ki, sosial platformalarda formalaşan bu qeyri-rəsmi ünsiyyət tərzi, gündəlik yazılı ifadəyə də sirayət edir. Bu isə gələcəkdə həm akademik, həm də işgüzar mühitdə ciddi dil problemlərinə yol aça bilər. Buna görə də dil normalarına riayət edilməsinin təşviqi və maarifləndirmə tədbirləri xüsusi əhəmiyyət daşıyır.

Normativ dil qaydalarının pozulmasının digər bir forması isə transliterasiya və qarışıq yazı şəklidir. Məsələn, "Salam, necəsən?" əvəzinə "salam necesen?" və ya "sag ol, gorum seni" kimi yazılış formaları, həm dilin fonetik xüsusiyyətlərinin, həm də sintaktik quruluşunun pozulmasına səbəb olur. Bu yazılış tərzləri, həmçinin sosial şəbəkə istifadəçiləri arasında standart olmayan formaların yayılmasına və normativ forma kimi qəbul olunmasına gətirib çıxarır (Zamanov, 2011). Bu hal xüsusilə

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

gənc nəsil arasında geniş yayılmış və nəticədə məktəb və universitet təhsilində yazı vərdişlərinə mənfi təsir göstərmişdir.

Azərbaycan dilinin dövlət dili kimi qorunması və inkişaf etdirilməsi bu baxımdan aktual məsələ olaraq qalır. Rəqəmsal kommunikasiya mühiti dilin inkişafı üçün yeni imkanlar yaratdığı qədər, ciddi problemlər də yaradır. Dövlət Dil Komissiyası tərəfindən son illərdə aparılan araşdırmalar göstərir ki, sosial şəbəkələrdə yayımlanan kontentlərin əksəriyyətində orfoqrafik və leksik pozuntular müşahidə olunur (*Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası*, 2022). Bu pozuntuların əsas səbəbləri sırasında istifadəçilərin dil qaydalarını bilməməsi, sürətli ünsiyyətə üstünlük verilməsi, rəqəmsal savadlılıq səviyyəsinin aşağı olması və sosial media platformalarının redaktə funksiyalarından istifadə edilməməsi göstərilir.

Dil normativlərinin pozulması təkcə fərdi məsələ deyil, ümum-milli problemə çevrilməkdədir. Əgər bu məsələ diqqətdən kənarda qalarsa, gələcək nəsillərin dil mədəniyyətində ciddi geriləmələr müşahidə oluna bilər. Bu səbəbdən aşağıdakı təkliflər irəli sürülə bilər: sosial şəbəkələrdə maarifləndirici kampaniyaların təşkili, dil üzrə tanınmış simaların nümunəvi istifadə formalarını təşviq etməsi, məktəblərdə rəqəmsal kommunikasiya mədəniyyəti ilə bağlı dərslərin daxil edilməsi və sosial platformalar üçün dil qaydalarını xatırladan tətbiqlərin hazırlanması. Bu tədbirlərlə həm dil normativləri qorunmuş olar, həm də gənc nəslin dilə yanaşması daha məsuliy-yətli formaya keçə bilər (Məmmədli, 2022).

Nəticə etibarilə, sosial şəbəkələrdə dil normativlərinin pozulması Azərbaycan dilinin inkişafı və qorunması baxımından ciddi çağırışdır. Bu çağırışa cavab vermək üçün həm elmi dairələrin, həm də cəmiyyətin birgə səylərinə ehtiyac vardır. Sosial media ilə dil arasında yaranmış bu yeni münasibətin tənzim-

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

lənməsi, yalnız elmi əsaslara söykənən və ictimai dəstəklə həyata keçiriləcək tədbirlər sayəsində mümkün olacaqdır.

## Ədəbiyyat

1. Əliyev, R. (2021). Sosial şəbəkələrdə orfoqrafik pozuntuların psixolinqvistik aspektləri. *Dil və Ədəbiyyat*, (4), 77–85.
2. Həsənli, T. (2020). Rəqəmsal medianın dilə təsiri. *Azərbaycan Filologiyası jurnalı*, (3), 45–53.
3. Məmmədli, A. (2022). *Yeni media və dilin gələcəyi: transformasiyadan təhlükəyə*. Müasir Araşdırmalar Mərkəzi.
4. Zamanov, S. (2011). *Dil və cəmiyyət: Sosial ünsiyyətin normativ əsasları*. "Maarif" nəşriyyatı

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 77-80
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 77-80
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Asya Bayramova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0009-7667-7521
bayramovasya@mail.ru

# Tarix və coğrafiya müəllimlərinin hazırlığında idarəetmə modellərinin təkmilləşdirilməsi

***Açar sözlər:*** *idarəetmə modeli, müəllim hazırlığı, strateji planlaşdırma, innovasiya, təhsil idarəçiliyi, peşəkar inkişaf*
***Keywords:*** *management model, teacher training, strategic planning, innovation, educational quality, professional development*

Müasir təhsil sistemində idarəetmə proseslərinin yenilənməsi və elmi əsaslarla qurulması müəllim hazırlığı mexanizmlərinin effektivliyinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Qlobal miqyasda təhsil siyasətinin əsas istiqamətlərindən biri müəllimlərin peşəkar formalaşmasını strateji idarəetmə sisteminə inteqrasiya etməkdir. Xüsusilə tarix və coğrafiya fənlərinin tədrisi üçün bu, xüsusi aktuallıq daşıyır. Çünki bu fənlər yalnız bilik ötürmə funksiyasını deyil, eyni zamanda, milli-mənəvi dəyərlərin, vətəndaşlıq düşüncəsinin və qlobal dünyagörüşünün formalaşmasını da təmin edir. Bu səbəbdən müəllim hazırlığı yalnız pedaqoji bacarıqların inkişafını deyil, həm də strateji düşüncə, qərarvermə, metodik hazırlıq və innovativ fəaliyyət bacarıqlarını əhatə etməlidir.

Tarix və coğrafiya müəllimlərinin hazırlığında idarəetmə modellərinin təkmilləşdirilməsi təhsil sistemində keyfiyyətin davamlı inkişafı üçün əsas şərtlərdən biridir. Yeni idarəetmə modelləri müəllim hazırlığını planlı, məqsədyönlü və elmi əsaslı

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 77-80
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 77-80
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

istiqamətə yönəltməklə yanaşı, onların peşəkar və şəxsi inkişafına da töhfə verir. Bu yanaşma təhsil siyasətinin effektiv həyata keçirilməsi və gələcək müəllimlərin strateji düşünmə bacarıqlarının formalaşdırılması üçün vacib elmi-metodik baza rolunu oynayır.

Ənənəvi idarəetmə modelləri müəllim fəaliyyətini müəyyən standartlara uyğun istiqamətləndirir və qərarverməni mərkəzləşdirilmiş struktura həvalə edir. Belə modellərdə müəllimlərin fərdi inkişaf ehtiyacları və pedaqoji kreativliyi kifayət qədər nəzərə alınmır, bu isə onların strateji bacarıqlarının formalaşmasını məhdudlaşdırır. Nəticədə, müəllimlər yalnız dərs deyən vəzifəsini yerinə yetirir, innovativ metodları tətbiq etmək və tədris prosesini optimallaşdırmaq imkanından məhrum olurlar. Təkmilləşdirmək üçün ənənəvi modelə adaptiv və nəticəyönümlü komponentlər əlavə olunmalıdır ki, müəllimlərin fərdi inkişaf ehtiyacları nəzərə alınsın və tədris prosesində daha elastik qərarvermə mexanizmləri tətbiq edilsin.

Adaptiv idarəetmə modeli müəllimlərin fərdi ehtiyaclarını, təcrübəsini və peşəkar bacarıqlarını nəzərə alaraq onların inkişafını təmin edir. Bu model müəllimlərin fəaliyyətinə elastiklik qazandırır, mentorluq və davamlı qiymətləndirmə sistemi ilə dəstəklənir, həmçinin, pedaqoji qərarvermə bacarıqlarını artırmaq üçün mütəmadi rəy və təhlil mexanizmlərini tətbiq edir. Təkmilləşdirmə baxımından adaptiv modelə əlavə komponentlər, məsələn, strateji düşüncə və liderlik bacarıqlarının inkişafını təmin edən proqramlar daxil edilməlidir ki, müəllimlər yalnız dərs deyən şəxs kimi deyil, təhsil prosesində strateji rol oynayan peşəkar kimi yetişsinlər. Beynəlxalq təcrübələr göstərir ki, adaptiv model müəllimlərin motiva-siyasını artırır və onların pedaqoji qərarvermə səmərəliliyini yüksəldir (OECD, 2020).

Strateji idarəetmə modeli müəllim hazırlığında uzunmüddətli planlaşdırma, resursların səmərəli istifadəsi və nəticə-

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

yönümlü monitorinq prinsipinə əsaslanır. Bu model müəllimlərin bilik və bacarıqlarını sistemli şəkildə artırmaq üçün təhsil müəssisələrinin strateji məqsədləri ilə fərdi inkişaf proqramlarını əlaqələndirir. Təkmilləşdirmə üçün bu modelə nəticə indikatorlarının müəyyənləşdirilməsi, peşəkar bacarıqların qiymətləndirilməsi metodları və adaptiv təlim proqramlarının inteqrasiyası əlavə edilir. Beləliklə, müəllim hazırlığı yalnız standart proqramlarla məhdudlaşmır, həm də nəticələrə əsaslanan və dinamik bir prosesə çevrilir.

İnnovativ idarəetmə modeli rəqəmsal texnologiyaların və onlayn resursların geniş istifadəsinə əsaslanır. Bu model müəllimlərin inkişafını virtual laboratoriyalar, elektron dərsliklər, simulyasiya və problem əsaslı öyrənmə vasitələri ilə dəstəkləyir. Təkmilləşdirmə baxımından bu modelə müəllimlərin nəticələrinin real vaxtda izlənilməsi, rəqəmsal analitiklərin tətbiqi və interaktiv tədris metodlarının genişləndirilməsi daxildir. Bu yanaşma müəllim hazırlığını daha çevik və adaptiv edir, həmçinin, pedaqoji qərarvermə və innovativ bacarıqların inkişafına imkan yaradır.

Hibrid idarəetmə modeli yuxarıda qeyd olunan bütün yanaşmaları birləşdirir və müəllim hazırlığında balanslı bir sistem yaradır. Bu model həm ənənəvi struktur və standartları, həm adaptiv fərdi yanaşmaları, həm strateji planlaşdırmanı, həm də innovativ texnologiyaları özündə birləşdirir. Təkmilləşdirmə üçün müəllimlərin fərdi ehtiyaclarının, təhsil müəssisəsinin strateji məqsədlərinin və nəticəyönümlü monitorinqin optimallaşdırılması, rəqəmsal texnologiyaların daha geniş tətbiqi vacibdir. Bu model müəllimlərin həm nəzəri, həm də praktik bacarıqlarını inkişaf etdirir, tədris keyfiyyətini yüksəldir və onları strateji və innovativ peşəkar kimi yetişdirir.

Müasir müəllim hazırlığı yalnız bir idarəetmə modelinə əsaslanmamalıdır. Ən effektiv yanaşma adaptiv, strateji və inno-

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

vativ idarəetmə prinsiplərinin kompleks şəkildə birləşdirilməsidir. Belə yanaşma müəllimlərin peşəkar inkişafını sürətləndirir, tədris prosesini nəticəyönümlü edir və təhsil sistemində dayanıqlı keyfiyyət artımına xidmət edir. Təkmilləşdirilmiş idarəetmə modeli müəllimlərin strateji düşüncə, pedaqoji qərarvermə, innovativ bacarıqlarını sistemli şəkildə inkişaf etdirir, təhsil siyasətində tətbiq üçün elmi əsaslı və praktik imkanlar təqdim edir.

## Ədəbiyyat


1. İlyasov, M. (2018). *Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri.* Monoqrafiya. "Elm və təhsil".
2. Hüseynzadə, R., Əzizova, Z., Əliyev, S., Verdiyeva, Ü. (2021). *Pedaqogika. Dərslik.* Mütərcim.
3. Abbasov, A., Hacıyev, A. (2012). Müəllim hazırlığına yeni yanaşmalar. Mütərcim.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Elnurə Səfərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4151-1750
seferovaelnure@mail.ru
**Könül Mahmudova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-7042-9257
mahmudova.konul@adpu.edu.az

## Biologiyanın tədrisində "Depressiyaya səbəb olan amillər" mövzusunda layihə

***Açar sözlər:*** *biologiya, depressiya, tədris, amil, layihə, metod, şagird*
***Keywords:*** *biology, depression, teaching, factor, project, method, pupil*

Hazırki dövrümüzdə layihələr metodu müvəffəqiyyətlə inkişaf edir və aktualdır. Uzun və ya qısa müddət ərzində şagirdlər verilmiş layihə üzərində işləyirlər və sonra hazırladıqları layihələrini təqdim edirlər. Layihələri hazırlayarkən şagirdlər sərbəst şəkildə öz işlərini, plan və qrafik üzrə qururlar. Layihələrin hazırlanması müddətində şagirlər müxtəlif ədəbiyyatlardan, İKT-nin imkanlarından, elektron və əyani kitabxanalardan, real həyatdakı hadisə və proseslərdən, müxtəlif məlumat mənbələrindən istifadə etmə bacarığı əldə edirlər. Hər hansısa hadisə

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

və ya prosesin müəyyən aspektini daha dərindən incələyir, araşdırır və anlayırlar. Layihə işləyərkən şagirdlər, eyni zamanda müxtəlif faktların, hadisələrin xarici mühitlə, həyatla əlaqəsinin fərqinə varmağa öyrənirlər. Şagirdlər təlim prosesində layihələri müəllimin rəhbərliyi altında idarə edirlər. Müəllim layihə mövzusunun seçilməsi, planın tərtibi, işin gedişi zamanı şagirdlərə istiqamət verməli, fasilitator rolunu oynamalı və kömək etməlidir.

*Layihənin planı:*

1.*Kişi və qadınlarda depressiya.*

2.*Depressiyanı meydana gətirən faktorlar.*

3.*Depressiyanın əlamətləri.*

4.*Depressiyaya səbəb olan dərman preparatları.*

*Kişi və qadınlarda depressiya.*

Depressiya illərdir dünyada geniş yayılmış bir psixi pozğunluqdur. Depressiyaya uşaqlarda, gənclərdə, yeniyetmələrdə, yaşlılarda yəni, müxtəlif yaş dövrlərində rast gəlmək olar. Müalicə olunan bir xəstəlikdir. Sadəcə vaxtında mütəxəssisə müraciət edilməli, səbəbləri araşdırılmalı və ona uyğun müalicə olunmalıdır. Kişilərə nisbətən qadınlarda depressiyaya daha çox rast gəlinir: -Eyni bir vəziyyətə, stressə qadınların kişilərdən daha çox, bəlirgən bir şəkildə reaksiya verməsi; -Kişi və qadına uyğun spesifik özəlliklər, fərdi xarakterlər; -Alkoqollu içkilərin qəbul edilməsi; -Hər hansısa xoşagəlməz hadisəyə öz emosiyasını ciddi, kəskin şəkildə biruzə verməsi; -Qadınlarda daha çox rast gəlinən hormonal problemlər, xəstəliklər; -Qadınlarda hamiləlik dövrü; -Menstruasiya tsikli; -Doğuş zamanı yaranan stress, gərginlik; -Qadının cəmiyyətimizdə rolu; -Onun subay, boşanmış və ya dul olması.

*Depressiyanı meydana gətirən faktorlar.* Depressiyanı doğuran bir başqa səbəblərə aid etmək olar:

- ✓ Narkotik maddələrdən asılılıq və ya alkoqola meyil;

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

- ✓ Ailədaxili münaqişələr, çevrədəki insanlarla yola getməmək;
- ✓ Uşaqlıq çağında valideynləri itirmək;
- ✓ Anksiyet pozğunluqları;
- ✓ Tək yaşamaq;
- ✓ Boşanmalar;
- ✓ Aşağı sosial yaşam;
- ✓ "Fast food" qidalar qəbul etmək;
- ✓ İşində və ya dərslərində, imtahanlarda baş verən uğursuzluqlar;
- ✓ Təkrarlanan depressiyalar;
- ✓ Təsirli, həyəcanverici, qorxulu hadisələrin baş verməsi;
- ✓ İnsanın özünə xas xarakterləri;
- ✓ Aşağı yaşlardan fiziki və cinsi işgəncələrə məruz qalmaq;
- ✓ Bir sıra qəbul edilən dərman preparatları;
- ✓ Bədəndə hormonal disbalansın yaranması.

*Depressiyanın əlamətləri.* Depressiyanın əlamətlərini belə sıralamaq olar: -Ümidsizliyə qapılmaq; -Xoş olmayan hallar, üzüntü; -Həzin, marağın getdikcə azalması; -Pessimistlik; -Kədər, üzüntü içində yaşamaq; -Gələcək planları, həyatları ilə bağlı neqativ düşüncələr; -Üzərinə düşən öhdəliklərə, öz vəzifələrinə qarşı biganəlik; -Öz işlərindən, münasibətlərindən zövq almamaq; -Ürəkbulanmalar; -İştahsızlığın baş verməsi; -Gündəlik ruhsal enerjinin aşağı düşməsi; -Çəkinin aşağı düşməsi; -Xəstənin heç zaman sağalmayacağını, həmişə bu narahat, depressiv vəziyyətdə qalacağını düşünməsi; -Getdikcə çarəsizliyin artaraq dərinləşməsi; -Yuxunun pozulması, yersiz yatma halları; -Unutqanlığın, fikir dağınıqlığının olması; -Bəzən, xəstəliyin ağır vaxtlarında xəstə reallıqla uydurmanı ayırd edə bilmir.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

Depressiyaya səbəb olan amillərdən biri də dərman preparatlarıdır:

-Qan təzyiqini düşürən dərmanlar;
-Çeşidli antibiotiklər;
-Ürək dərmanları;
-İltihabəleyhinə atılan dərmanlar;
-Ağrıkəsici preparatlar;
-Hormonal dərmanlar;
-Psixotrop dərmanların qəbul edilməsi;
-Alkoqollu içkilər və dərmanlar.

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 85-88
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 85-88
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Lalə Azaylı**
Mərcan Medicare Clinic
https://orcid.org/0009-0000-9902-1984
lala.azayli@gmail.com

# Yeniyetmə dövründə hormonal profil və gənc yaşda arterial hipertenziyanın inkişafı arasında əlaqə

***Açar sözlər:*** *yeniyetmə dövrü, hormonal profil, arterial hipertenziya, gənc yaş, qan təzyiqi, endokrin sistem, risk faktorları, kardiovaskulyar sağlamlıq, pubertal dəyişikliklər, fizioloji dəyişikliklər*
***Keywords**: adolescence, hormonal profile, arterial hypertension, young age, blood pressure, endocrine system, risk factors, cardiovascular health, pubertal changes, physiological changes*

Yeniyetməlik dövrü orqanizmin ən mürəkkəb fizioloji mərhələlərindən biridir və bu mərhələdə baş verən endokrin dəyişikliklər gələcək sağlamlıq üçün ciddi təsir göstərə bilər. Bu dövrdə bədənin böyüməsi və cinsi yetişkənliyin formalaşması ilə əlaqədar olaraq hormonların – xüsusilə insulin, kortizol, adrenalin, estrogen, testosteron, böyümə hormonu (GH) və tiroid hormonlarının səviyyəsində kəskin dalğalanmalar müşahidə olunur. Bu hormonal dəyişikliklər bəzən müvəqqəti olaraq maddələr mübadiləsini və damar tonusunu dəyişdirərək arterial təzyiqin tənzimlənməsinə təsir edə bilər.

Tədqiqatlar göstərir ki, yeniyetmə dövründə müşahidə olunan fizioloji insulinə rezistentlik və simpatoadrenal sistemin aktivləşməsi gənc yaşda arterial hipertenziyanın ilkin patogenezik mexanizmlərindən biri ola bilər. Məsələn, insulinə qarşı

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 85-88
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 85-88
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

həssaslığın azalması damar endotelinin funksiyasını zəiflədərək vazokonstriksiya və natriumun tutulması ilə nəticələnir ki, bu da qan təzyiqinin artmasına şərait yaradır. Eyni zamanda, androgen və estrogen balansının pozulması, kortizol səviyyəsinin artması kimi hallar ürək-damar sisteminə əlavə yüklənmə gətirə bilər.

Yeniyetmələrdə artıq çəki, az fiziki aktivlik, psixoemosional gərginlik və qeyri-sağlam qidalanma kimi faktorlar da hormonal balansı pozaraq hipertenziya riskini yüksəldir. Bu faktorların təsiri altında bədəndə oksidativ stress artır, damar divarının elastikliyi azalır və arterial təzyiqin daimi yüksəlməsi üçün şərait formalaşır.

Endokrin sistemin bu yaş dövründəki aktiv fəaliyyəti nəticəsində yaranan dəyişikliklər çox vaxt keçici olsa da, bəzi hallarda patoloji forma ala bilər. Məsələn, hipotalamo-hipofizar sistemin disfunksiyası və ya böyrəküstü vəzlərin hiperaktivliyi fonunda gənc yaşda arterial hipertenziya inkişaf edə bilər. Bu səbəbdən, yeniyetməlik dövründə hormonal profillərin izlənməsi və arterial təzyiqin mütəmadi ölçülməsi gələcəkdə hipertoniya və digər kardiometabolik xəstəliklərin qarşısını almaqda mühüm rol oynayır.

Nəticə etibarilə, yeniyetmə dövründə hormonal dəyişikliklər yalnız fizioloji yetkinləşmə prosesi ilə məhdudlaşmır, həm də orqanizmin gələcək kardiovaskulyar sağlamlığının əsasını formalaşdırır. Buna görə də, bu dövrdə endokrin sistemin vəziyyətinin qiymətləndirilməsi, düzgün qidalanma, fiziki aktivlik və psixoloji balansın qorunması arterial hipertenziyanın gənc yaşda inkişaf riskini əhəmiyyətli dərəcədə azalda bilər.

Bu mövzunun davamı olaraq qeyd etmək lazımdır ki, yeniyetmə dövründə hormonal və metabolik dəyişikliklərin uzunmüddətli nəticələri təkcə arterial hipertenziya ilə məhdudlaşmır. Endokrin sistemin bu yaşda keçirdiyi funksional dalğalanmalar həm ürək-damar sisteminin, həm də böyrəklərin

və sinir sisteminin gələcək fəaliyyətinə təsir göstərə bilər. Xüsusilə də arterial hipertenziyanın başlanğıc mərhələsində yaranan damar endotelinin disfunksiyası ateroskleroz prosesinin erkən formalaşmasına zəmin yaradır. Bu hal gənc yaşda hipertoniya diaqnozu qoyulmuş şəxslərdə daha sonrakı dövrlərdə ürək-damar xəstəliklərinin, infarkt və insult riskinin artması ilə əlaqələndirilir.

Hormonal balans pozğunluqları – xüsusilə kortizolun, aldosteronun, insulin və leptin hormonlarının səviyyəsindəki dəyişikliklər – qan dövranı sistemində maye və elektrolit balansını pozaraq hipervolemiyaya (qan həcminin artması) səbəb ola bilər. Bu, öz növbəsində, arterial təzyiqin davamlı yüksək olmasına gətirib çıxarır. Leptin rezistentliyi isə piylənmə ilə yanaşı, simpatik sinir sisteminin hiperaktivliyini gücləndirir, bu da ürək ritminin artması və damar müqavimətinin yüksəlməsi ilə müşahidə olunur.

Gənc yaşda arterial hipertenziyanın formalaşması həm də genetik və epigenetik mexanizmlərlə əlaqələndirilir. Ailəsində hipertenziya və ya metabolik sindrom olan fərdlərdə yeniyetməlik dövründə endokrin dəyişikliklər daha kəskin formada özünü göstərə bilər. Bu vəziyyət genetik meyilliliyin, hormonal aktivliyin və ətraf mühit faktorlarının birgə təsiri nəticəsində yaranan kompleks bir prosesdir.

Psixososial stressin də bu əlaqədə mühüm rolu vardır. Yeniyetməlik dövrü sosial adaptasiya, şəxsiyyətin formalaşması və emosional gərginliyin artdığı bir mərhələdir. Bu stress halları hipotalamo-hipofizar- adrenal (HHA) oxunun aktivliyini artırır və kortizolun xroniki yüksəlməsinə səbəb olur. Xroniki stress nəticəsində yaranan bu hormonal dəyişikliklər arterial təzyiqin sabit yüksək qalmasına şərait yarada bilər.

Profilaktik baxımdan, yeniyetməlik dövründə sağlam həyat tərzinin formalaşdırılması böyük əhəmiyyət daşıyır. Balans-

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 85-88
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 85-88
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

laşdırılmış qidalanma, duz və şəkər qəbulunun azaldılması, müntəzəm fiziki aktivlik, psixoloji dəstək və vaxtında tibbi müayinələr hipertenziya riskini əhəmiyyətli dərəcədə azalda bilər. Həmçinin, məktəblərdə və gənclər arasında sağlam həyat tərzi və stressin idarə olunması ilə bağlı maarifləndirici proqramların həyata keçirilməsi profilaktikanın vacib istiqamətlərindən biridir.

Elmi baxımdan, bu mövzu yeniyetmələrin sağlamlıq profilinin formalaşdırılmasında multidissiplinar yanaşmanın vacibliyini vurğulayır. Endokrinologiya, kardiologiya, pediatriya və psixologiya sahələrinin birgə fəaliyyəti sayəsində erkən risk faktorlarının müəyyənləşdirilməsi və fərdi profilaktik strategiyaların hazırlanması mümkündür.

Ümumiyyətlə, yeniyetməlik dövründə hormonal profil ilə arterial hipertenziya arasındakı əlaqənin dərin öyrənilməsi gələcək nəsillərdə kardiometabolik xəstəliklərin qarşısının alınması istiqamətində mühüm elmi və praktiki əhəmiyyət daşıyır. Bu baxımdan, bu dövr yalnız keçici bioloji dəyişikliklər mərhələsi deyil, həm də uzunmüddətli sağlamlıq strategiyalarının təməli kimi qiymətləndirilməlidir.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

**Кямаля Эфендиева**
Азербайджанский Государственный Педагогический Университет
https://orcid.org/0009-0005-3204-4213
efendi.kamala@gmail.com

# Ультраструктура и онтогенез тапетальной пленки пыльников ячменя

***Ключевые слова***: *ячмень, ультраструктура, пыльник, тапетальная пленка, спорополленин*
***Açar sözlər:*** *arpa, anter, sporopollenin, ultrastruktur, tapletal film*
***Keywords***: *barley, anther, sporopollenin, ultrastructure, tapletal film*

Электронно микрокопически были изучены ацетолизорованные тапетальные пленки пыльников ячменя.

В момент созревания пыльцевых зерен тапетальная пленка ячменя полностью сформирована. Наружная тангетальная сторона тапетельной пленки граничит со средним слоем стенки пыльника. Внутренная тангентальная поверхность пленки выстилает тапетальную клетку со стороны гнезда пыльника. Со стороны эндотеция пленка представлена тонким слоем, на котором расположены бесформенные относительно крупные и мелкие скопления электронноплотного вещества-спорополленина. Спорополленин тапетальной пленки, в том числе и орбикул, синтезируется цитоплазмой тапетальных клеток. Тапетальная пленка, вероятно, также представляет собой продукт полимеризации спорополленина. Наиболее крупным компонентом внутренней тангетальной части

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

тапетальной пленки являются орбикулы, прикрепленные к электронноплотному слою. Строение тапетальной пленки, окружающей клетку тапетума с радиальной стороны, аналогично строению внутренней тангетальной части тапетальной пленки, однако орбикулы здесь обычно мельче. Орбикулы на срезах имеют шиповатую форму и округлую центральную полость; в отдельных участках орбикул видно, как с помощью спорополлениновых тяжей они прикреплены в сетчатому слою.

Тапетальная пленка, целиком окружающая тапетальную клетку пыльника, впервые обнаруживается в фазе образования одноядернего пыльцевого зерна, когда экзина пыльцевых зерен и орбикулы хорошо различимы.

Клетки тапетума в период образования в результате деления первичного парнетального слоя пыльников несут признаки меристематических клеток и окружены первичной клеточной оболочкой. У ячменя последняя неравномерна по толщине на различных участках. Например, в фазе формирования диад наиболее толстая оболочка образуется на внутренней тангентальной поверхности тапетальных клеток.

В фазе формирования тетрад микроспор между плазмалеммой и первичной оболочкой, ограничивающей внутреннюю тангентальную поверхность тапетальной клетки, появляются округлые тела-проорбикулы, которые окружены лопастными участками цитоплазмы. Затем на этих округлых телах сначала с одной стороны начинает откладываться более электронноплотный материал, вероятно, спорополленин. Спорополленин постепенно накапливаются на проорбикулах, которые в момент своего появления оказываются как бы погруженными в слабо волокнистую массу первичной оболочки, срединная

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

пластинка которой всегда электронноплотнее. Остатки лизировавшейся клеточной оболочки еще продолжительное время обнаруживаются в пространстве между орбикулами.

Начало заложения будущего сетчатого слоя совпадает по времени, вероятно с появлением относительно электроннопрозрачных серых тел – проорбикул и отложением на них первых слоев спорополленина. На выделенной из ацетолизированного пыльника тапетальной пленке в период формирования пыльцевого зерна до вакуолизации можно рассмотреть молодые орбикулы, расположенные на тонком полупрозрачном слое, тоже, вероятно, состоящем их спророполленина. Этот тонкий слой неоднороден по толщине, так как в нем образуются как более электронноплотные, так и более проницаемые для электронов участки. Молодые орбикулы сохраняют свое местоположение и не распадаются при ацетолизе в концентрированной серной кислоте. Отсюда логично заключить, что орбикулы прикреплены к тонкому, также ацетолизоустойчивому слою. Отверстия в этом слое на данной фазе развития пыльников отсутствуют.

Пленка покрывает всю поверхность тапетальной клетки в период незадолго до дегенерации цитоплазмы клетки. Лизис тапетальной ткани после завершения формирования пыльцевых зерен для растений является нормой. После лизиса цитоплазмы тапетальной клетки пленка слегка спадается, но остается в пыльнике на месте своего образования. В зрелом пыльнике от тапетума остается только спорополлениновая оболочка (тапетальная пленка) с орбикулами, входящими в ее состав.

**https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025**

**Tahə İbrahimov**
Ağsu, Azərbaycan
https://orcid.org/0009-0001-1812-282X
tahibrahimov287@gmail.com

# Qara enerji mövcuddurmu?

***Açar sözlər:*** *qara enerji, hissiyyat, insan zəkası, kainat, üzvi aləm*
***Keywords:*** *dark energy, emotions, human intelligence, universe, organic world*

"İctimai TV"-də efirə getmiş verilişlərdən biri qara enerji ilə əlaqədar idi. Həmin verilişdə xarici ölkə alimlərinin qara enerji haqqında maraqlı fikirləri səsləndirildi. Məsələ burasındadır ki, dünyanın ən məşhur alimləri qara enerjinin mövcudluğu haqqında qısa da olsa, fikir söyləyirlər. Lakin eyni zamanda öz fikirlərini inkar edirlər. Hətta qara enerjinin mövcud olmadığını sübut etməyə çalışırlar.

Mövzunun aktuallığını nəzərə alaraq öz fikirlərimi izah etməyə çalışacağam. Əvvəlcədən qeyd etməliyəm ki, qara enerji mövcuddur. Hələlik insan zəkası onun varlığını, yaranmasını, təsirini dərk edə bilmir. Heç bir elmi cihaz, teleskop qara enerjinin yaranma səbəblərini qeydə almır. Qara enerjinin bizim Günəş sistemindən çox uzaq məsafədə yaranması fikrini söyləyənlər də vardır. Əslində, bu belə deyildir. Kainatın bütün nöqtələrində qara enerji mövcuddur. Yer üzərinin istənilən nöqtəsində qara enerji vardır. Bütün üzvi aləm, canlı orqanizmlərin mövcudluğu bizim dərk edə bilmədiyimiz həmin enerji ilə əlaqədardır. Çox nadir insanlar həmin enerjinin varlığını dərk edə bilərlər. Lakin təsir xüsusiyyətlərini öyrənə bilməzlər.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

Çoxlu suallar meydana çıxır: Qara enerji hansı qüvvənin təsiri altında yaranır? Nə üçün insan zəkası onu dərk edə bilmir? Necə olur ki, elmin bu qədər yüksək səviyyədə inkişaf etdiyi vaxtda Qara enerjini öyrənmək mümkün olmur? Sualların cavabını qısa olaraq izah edəcəyəm. Məlumdur ki, Kainatın genişlənməsi zaman keçdikcə sürətlənir.Deməli, genişlənmə qüvvəsi mövcuddursa, genişlənmə enerjisi də mövcuddur. Canlı orqanizmləri təşkil edən atom və molekullar genişlənmə qüvvəsinə daha tez məruz qalır. Genişlənmə varsa, sıxılma da vardır. Sıxılma enerjisi də vardır. Həmin sıxılma enerjisi Qara enerjidir. Deməli, Kainatın bütün nöqtələrində həm genişlənmə, həm də sıxılma gedir. Qeyd etdiklərimin dərk edilməsi çox çətindir. Genişlənmə və sıxılma eyni vaxtda baş verir. Biz bunu dərk edə bilmərik. İnsan zəkası, şüuru Kainatın genişlənməsinin məhsuludur. Ona görə də biz yalnız genişlənməni öyrənə bilirik. Hər hansı bir nöqtəyə genişlənmə qüvvəsi nə qədər təsir göstərirsə, sıxılma qüvvəsi də o qədər təsir göstərir. Genişlənmə qüvvəsinin təsiri ilə enerji ayrılır. Sıxılma qüvvəsinin təsiri ilə enerji udulur. Enerji ayrılması və enerji udulması zamanı tarazlıq vəziyyəti yaranır. Tarazlığın pozulması zamanı insanın müşahidə edə biləcəyi proseslər baş verir.

Genişlənmə qüvvəsinin təsiri ilə maddənin atom və molekulyar quruluşunda dəyişiklik baş verir. Bu zaman sıxılma qüvvəsinin təsiri nəticəsində atom və molekullar elmə məlum olmayan zərrəciklərə çevrilir. Sıxılma nəticəsində toplanan enerji nə qədər çox olarsa, gələcəkdə partlayış bir o qədər güclü olar. Partlayış nəticəsində yeni səma cisimləri yaranır. Çətinlik ondadır ki, biz sıxılma sisteminə aid heç nə dərk edə bilmirik. Allahın qüdrəti ilə bütün baş verən proseslər çox ciddi qanunauyğunluq nəticəsində idarə olunur.

Alimlər arasında belə bir fikirlər vardır ki, Qara enerji Kainatı məhv edəcəkdir. Yer üzərində Qara enerjinin təsiri ilə

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 92-94
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 92-94
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

dəhşətli hadisələr baş verəcəyi ilə əlaqədar xəbərdarlıqlar edilir. Bütün bunlar düzgün olmayan fikirlərdir. Qara enerji Kainatı məhv etmir, əksinə, məhv olmaqdan qoruyur. Genişlənmə qüvvəsinin və enerjisinin təsiri ilə atom və molekulların quruluşu, elektron təbiəti dəyişir. Biz bunu dərk etmirik. Bütün maddi varlıqların dəyişməsi prosesi gedir. Yer üzərində canlı orqanizmlərin yaranması, inkişafı yalnız genişlənmə qüvvəsinin təsiri altında baş vermişdir. Hazırda isə məhvolma prosesi gedir. Məhv olmanın qarşısını Qara enerji alacaqdır. Qara enerji olmasaydı, Yer üzərində canlı orqanizmlər çoxdan məhv olardı. Eyni zamanda, Yer üzərində həyatın qalıb-qalmaması məsələsi insanların şüurlu münasibətindən də asılıdır. Müasir fizika qanunları, nisbilik nəzəriyyəsi sıxılma sistemində işləmir. Qara enerjinin canlı orqanizmlərdə baş verən prosesləri, insanlar arasında baş verən ictimai-siyasi hadisələri izləmək və təsir göstərmək xüsusiyyəti vardır. Əgər insan şüurunda baş verən dəyişiklik canlı aləmə mənfi təsir göstərirsə, onda Qara enerji məhvedici təsir göstərir.

Yer üzərində canlı aləm Allahın qüdrəti ilə yaranmışdır. İnsana şüur verilmişdir ki, canlı aləm yaşasın, inkişaf etsin, Kainat öyrənilsin. Bu yoldan, bu istiqamətdən kənara çıxıldıqda Qara enerji məhvedici təsir göstərir.

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 95-98
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 95-98
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

# TEXNİKA ELMLƏRİ
# TECHNİCAL SCIENCES

**Şirin Baxşəliyeva**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-3802-0747
bahshaliyeva@mail.ru
**Rafiq İbrahimov**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1093-6369
rafiq.ibrahimov@yahoo.com

## Neft və qaz quyularının qazılması zamanı osmotik təzyiqin yaranmasının neft-qaz su təzahürünə təsirinin tədqiqi

***Açar sözlər:*** *quyu, osmotik təzyiq, gil qabığı, qoruyucu kəmər, qaz sabıtı, süzülmə*
***Keywords:*** *well, osmotic pressure, clay shell, casing, gas constant, filtration*

Məqalədə göstərilir ki, neft və qaz quyularının qazılması zamanı neft-qaz-su təzahürlərinin əmələ gəlməsinin başlanması və ləğvi prosesi quyu lüləsində təzyiqlərin fasiləsiz paylanması ilə xarakterizə edilir (İbrahimov, Baxşəliyeva, & Məmmədova, 2013). Təzyiqlərin dəyişməsinin intensivliyi, istiqaməti və ölçülmə hədləri mürəkkəbləşmələrin əmələ gəlməsinə və qazıma şəraitinin normallaşması tədbirlərinə təsir edə bilər. Təzahür-

*Elm və Təhsilin Əsasları* XVI Beynəlxalq Elmi Konfrans 1 noyabr 2025 / 95-98
*Fundamentals of Science and Education* XVI International Scientific Conference 1 november 2025 / 95-98
https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

lərin ləğvində təzyiqin idarə olunmasının effektivliyi, quyu ağzında əmələ gələn mürəkkəbləşmələrin qarşısının alınmasıdır. Quyuların qazılmasında əmələ gələn mürəkkəbləşmələrin ən əsasının ləğv edilməsi əhəmiyyət kəsb edir.

Müəyyən olunmuşdur ki, süxurlarda olan məhlul fazalara ayrılır, yəni su hissəcikləri sərbəst olur. Zaman keçdikcə gil qabığının arxasında suyun konsentrasiyası quyunun daxilində olan qazıma məhlulunun tərkibindəki suyun konsentrasiyasından artıq olur (Məhərrəmov, & Allahverdiyev, 1997; Qarayev, 1975). Onda bu konsentrasiyanın fərqi gil qabığının arxasında olan suyun əks tərəfə süzülməsinə gətirib çıxarır. Bu da quyudaxili təzyiqin artmasına və gil qabığının hər iki tərəfində təzyiqlər fərqinə səbəb olur ki, bu təzyiqlər fərqi osmotik (osmas (yunanca ὄσμος — "təkan, itələmə, təzyiq") təzyiq yaradır (şəkil 1).

Şəkil 1. Quyuda osmotik təzyiqin yaranması sxemi

Osmotik təzyiq kifayət qədər yüksək qiymətlər ala bilər.



https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

Belə ki, dəniz suyunda osmotik təzyiq 2,8 MPa-la qədər arta bilər. Osmotik təzyiq Vant-Hoff düsturu ilə təyin etmək olar (Detlaf, Yavorskiy, 1989, Ditersky ,1978).

$$\pi = CRT = CRhT_0$$

Burada, $\pi$ –osmotik təzyiq, $R$- qaz sabiti, $T$- mütləq temperaturdur, $T_0$ –quyu dərinliyinin vahid uzunluğuna düşən temperatur dəyişməsidir, $h$ – quyunun qazma dərinliyidir, $C$-məhlulun konsentrasiyasıdır. Onda:

$$C = \frac{\gamma_1}{Mg}$$

Burada, $\gamma_1$ –süxurun xüsusi çəkisi, $M$-süxurun molyar kütləsi, $g$ –sərbəst- düşmə təcilidir.

Gilli örtüyə daxildən və xaricdən təzyiqə məruz qalan silindrik bir cisim kimi baxsaq, daxili təzyiq $P_1$ aşağıdakı kimi təyin olunar (Seid-Rza, Safarov,1991; Seid-Rza, Ismailov, 1986; Safarov, 2000):

$$P_1 = \gamma_m h + P + \pi = P + h(\gamma_m + CRT_0)$$

Burada $\gamma_m$ –quyudan çıxan qazıma məhlulunun xüsusi çəkisidir; $P$ – qazıma məhlulunu qaldırmaq üçün yaradılan izafi təzyiqdir; $h$ – quyunun qazıma dərinliyidir və aşağıdakı kimi təyin olunur:

$$h = h_1 + h_0$$

Burada, $h_1$ – quyunun qoruyucu kəməri olmayan hissənin hündürlüyüdür, $h_0$ – quyunun qoruyucu kəməri olan hissənin hündürlüyüdür.

Beləliklə, quyudibi ətraf zonasındakı süxurların dayanıqlığının itirilməsinin əsas səbəblərindən biri osmotik təzyiqin yaranmasıdır ki, bununla neft-qaz-su təzahürü yaranır. Nəzərə alsaq ki, qazma məhlulunda gilin konsentrasiyasının artması osmotik təzyiqin artması son nəticədə quyudaxili təzyiqin azalmasına səbəb olur və nəticədə neft-qaz-su təzahürü yaranır.

https://doi.org/10.36719/2789-6919/XVI/BK/2025

## Ədəbiyyat

1. Detlaf, A. A., Yavorskii, B. M. (1989). *Kurs fiziki: Uchebnoe posobie dlya vuzov*. Vysshaya shkola.
2. Dytnerskii, YU.I. (1978). *Obratnyi osmos i ul'trafil'tratsiya*. Khimiya.
3. İbrahimov, R.S., Baxşəliyeva, Ş.O., Məmmədova, K.Ü. (2013). Geololi tektonik aktivliyinin neft və qaz quyularının qazılması zamanı mürəkkəbləşmələr əmələ gətirməsinin bəzi məsələləri. *Azərbaycan Texniki Universiteti, Heydər Əliyev və Azərbaycan Təhsili, Respublika elmi konfransının materialları*.
4. Qarayev, Z. (1975). *Qeyri-üzvi kimya*. “Elm”.
5. Məhərrəmov, A., Allahverdiyev, M. və b. (1997). *Kiçik kimya ensiklopediyası*. “Elm”.
6. Seid-Rza, M.K., Safarov, YA.N. i dr. (1991). Rukovodstvo po tekhnologii bureniya, preduprezhdeniyu avarii i oslozhnenie pri provodke skvazhin (RD39-0147213-017-91). AZNIPIneft'.
7. Seid-Rza, M.K., Ismailov, SH.I. (1986). K voprosu o gazoprovleniyakh pri provodke skvazhin. ANKH, (6).
8. Safarov, YA.I. (2000). Povyshenie ehffektivnosti bureniya neftyanykh i gazovykh skvazhin v oslozhnennykh usloviyakh. SADA.

# İÇİNDƏKİLƏR
# CONTENTS

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES


**Cavadxan Qasımov**
Naxçıvan Muxtar Respublikasında məşğulluq tədbirlərinin yeni keyfiyyət mərhələsi ............ 8
**İradə Bağırova**
Davamlı inkişaf kontekstində müəssisədə innovasiyalı idarəetmənin və kreativ fəaliyyətin qiymətləndirilməsi və bu sahədə əldə edilən uğurlar ............ 12
**Bulqeyis Novruzova**
Qlobal təhlükələr kontekstində Azərbaycanın qeyri-neft sektoru sahələrinin inkişafının müasir problemləri ............ 15
**Sevda Cəfərova**
Azərbaycan musiqisində qəzəl romans janrının əsas xüsusiyyətləri ............ 18
**Sevinc Əsgərova**
Müasir dövrdə xor əsərlərində xalq musiqisinin melodik intonasiya quruluşundan istifadə ............ 22
**Salbina Hatamli**
Authentic Assessment: Preparing University Students for Real-World Challenges ............ 25
**Rahibə Əbdülhəsənova**
Miqrasiyanın regional iqtisadi inkişafda rolu və miqrasiya siyasətlərinin davamlı inkişafla əlaqəsi ............ 29

**Гарифат Дадашова**
Этнопсихологическое наследие в
творчестве Н.Гянджеви ........................................................ 33
**Ülvi Baxışlı**
Sahibkarlığın inkişafının məşğulluq, həyat səviyyəsi
və iqtisadi təhlükəsizliyə təsiri ................................................ 37
**Orxan Bəşirli**
İnvestisiya məfhumunun müəyyənləşdirilməsində
ənənəvi ‘Salini’ meyarlarının rolu .......................................... 40
**Yeganə İsgəndərova**
Müasir Azərbaycan dilində toponimlər .................................. 43
**Valeh Əlixanov, Lalə Talıbova**
Azərbaycanda idmanın inkişaf tarixi ....................................... 47
**Gülnar İsmayılova**
Azərbaycan dilində elmi məqalələrin yazılması
və təqdimatında qarşıya çıxan problemlər............................... 51
**Gunel Mammadova**
Parental Attitudes Toward Tablet use in
Preschool Children ................................................................. 55
**Qadir Əliyev**
İdmanda yaranan zədələrdən qorunma üsulları və
rice terapiya ............................................................................ 61
**Elşən Əsgərov**
Müəssisə maliyyəsinin idarə olunması .................................... 64
**Vüsal Hüseynov**
İqlim və onun təsirlərinə dair ali təhsil
proqramlarının effektivliyi ...................................................... 67
**Zahid Qəmbərov**
İnvestisiya fəaliyyətinin nəzəri, metodoloji
əsasları .................................................................................... 69
**Günay Hadiyeva**
Sosial şəbəkələrdə dil normativlərinin
pozulması................................................................................ 72

**Asya Bayramova**
Tarix və coğrafiya müəllimlərinin hazırlığında idarəetmə modellərinin təkmilləşdirilməsi ............................... 77

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCIENCES

**Elnurə Səfərova**, **Könül Mahmudova**
Biologiyanın tədrisində "Depressiyaya səbəb olan amillər" mövzusunda layihə .................................................... 81
**Lalə Azaylı**
Yeniyetmə dövründə hormonal profil və gənc yaşda arterial hipertenziyanın inkişafı arasında əlaqə ........................ 85
**Кямаля Эфендиева**
Ультраструктура и онтогенез тапетальной пленки пыльников ячменя .................................................... 89
**Tahə İbrahimov**
Qara enerji mövcuddurmu? ...................................................... 92

## TEXNİKA ELMLƏRİ
## TECHNİCAL SCIENCES

**Şirin Baxşəliyeva, Rafiq İbrahimov**
Neft və qaz quyularının qazılması zamanı osmotik təzyiqin yaranmasının neft-qaz su təzahürünə təsirinin tədqiqi ..................................................... 95

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: bek.tedqiqat@aem.az

**Editorial address**
AZ1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House, 6th floor
Phone: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: bek.tedqiqat@aem.az

İmzalandı: 24.10.2025
Onlayn çap: 01.11.2025
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 6.75 ç.v.
Sifariş: 101

---

**"ZƏNGƏZURDA"**
Çap Evində çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru

Signed: 24.10.2025
Online publication: 01.11.2025
Format: 60/84, 1/16
Stock issuance: 6.75 p.s.
Order: 101

---

It has been published in the printing house
**"ZANGAZURDA"**
Address: Baku city, Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House, 6th floor
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru